**AZƏRBAYCANDA ATATÜRK MƏRKƏZİ**

# BORÇALI NAHİYƏSİNİN KAMERAL TƏSVİRİ 1860-cı il

**Tərcümə, tərtib, giriş mətni, qeyd və şərhlərin müəllifi:**
**Nazir ƏHMƏDLİ**

**"Elm və təhsil"**
**Bakı-2024**

*Milli Azərbaycan Tarixi Muzeyi Elmi Şurasının qərarı ilə nəşr olunur.*

**Layihə rəhbəri**
**və elmi redaktoru:** ***akademik Şahin Mustafayev***

**Elmi məsləhətçi:** ***akademik Nizami Cəfərov***

**Bakı, "Elm və təhsil", 2024, 400 səh**

*1743-cü ildə Nadir şah tərəfindən Gürcüstan vilayətinə (Kartli-Kaxetiya çarlığına) daxil edilən və 1801-ci ildə onunla birlikdə Rusiyaya ilhaq edilən Azərbaycan türklərinin tarixən yaşadığı Borçalıda Rusiya hökuməti tərəfindən vergi tətbiq etmək məqsədi ilə 1804-cü ildən başlayaraq müxtəlif vaxtlarda siyahıyaalmalar aparılmış və kameral təsvirlər tərtib edilmişdir. Oxuculara təqdim edilən bu kitaba Borçalı nahiyəsinin 1860-cı ilə aid kameral təsviri daxil edilmişdir. Kitabda Borçalı nahiyəsinin tarixi coğrafiyası, inzibati-ərazi bölgüsü, sosial-iqtisadi və demoqrafik vəziyyəti, əhalinin etnik tərkibi, məşğuliyyəti demoqrafiyası, məşğuliyyəti və dövlətə ödədiyi vergilər haqqında ətraflı məlumat verilir.*

**ISBN 978-9952-8176-2-1**

**© Nazir ƏHMƏDLİ , 2024**

## İÇİNDƏKİLƏR:

ÖN SÖZ. QƏDİM TÜRK YURDU BORÇALI ..........8
ABDALLI və ya XAÇELİ kəndi ..................................48
AQVA kəndi ........................................................49
AĞAMƏMMƏDLİ kəndi ...........................................49
AKAURTA kəndi ....................................................53
AKORİ kəndi.........................................................53
HALLAVAR kəndi...................................................53
YUXARI HAMAMLI kəndi .......................................55
ƏNGİRAVAN kəndi ...............................................59
ARAPLI kəndi ......................................................59
ARIXLI kəndi .......................................................62
ARDVİ kəndi ........................................................65
ARÇİÇ kəndi ........................................................65
HASANXOCALI kəndi ...........................................65
AĞKÖRPÜ kəndi ..................................................67
AXILLALƏLİ kndi .................................................67
AXILMAHMUDLU kəndi .........................................69
AXPAT kəndi ........................................................70
BAYDAR kəndi .....................................................71
BAYTALLI kəndi ...................................................75
BALIÇI kəndi .......................................................75
BARAXLI kəndi ....................................................76
BARDAZUR kəndi .................................................77
BASLEBİ kəndi ....................................................77
BAŞKEÇİD kəndi .................................................77
BÖYÜK BƏYLƏR kəndi ........................................77
KİÇİK BƏYLƏR kəndi ..........................................79
BƏZƏKLİ kəndi ...................................................79
BƏYTƏRƏFÇI kəndi ............................................80
BOĞAZKƏSƏN kəndi ..........................................82

**BOLNİS-KƏPƏNƏKÇİ kəndi** ....................................83
**BOLNİS-XAÇIN kəndi** ...............................................92
**BUSUQALA (İKİNCİ KƏMƏRLİ) kəndi** ..................92
**VURNAK kəndi** ..........................................................94
**QAQMA SAKARİSİ (ÜÇÜNCÜ KƏMƏRLİ) kəndi**...94
**QILIQ kəndi** ...............................................................95
**QORENCUQ kəndi** ....................................................96
**GÖRARXI kəndi** .........................................................96
**YUXARI GÜLƏVER kəndi** .......................................113
**AŞAĞI GÜLƏVER kəndi** ..........................................114
**GÜLTƏPƏLİ kəndi** ....................................................116
**DARVAZ kəndi** ...........................................................117
**DƏMİRÇİHASANLI-KƏPƏNƏKÇİ kəndi** ...............122
**CANBAĞÇA kəndi** ....................................................128
**CANDAR kəndi** ..........................................................131
**CƏFƏRLİ kəndi** .........................................................133
**CANƏHMƏDLİ kəndi** ...............................................134
**CİREŞ kəndi** ...............................................................134
**DZVELKVELLİ kəndi** ................................................135
**CIX kəndi** ...................................................................136
**DİYAL (DÖRDÜNCÜ KƏMƏRLİ) kəndi** ..................136
**BÖYÜK DUMANİS kəndi** ..........................................137
**KİÇİK DUMANİS kəndi** .............................................138
**İKOQAT kəndi** ............................................................138
**İLMƏZLİ kəndi** ...........................................................139
**İMİR kəndi** ..................................................................142
**İMİRHASANLI kəndi** ................................................145
**QƏLƏMŞAH kəndi**......................................................148
**KİÇİK QARABULAQ kəndi** .......................................148
**QARADAŞ kəndi** ........................................................149
**QARAKEŞƏLİ kəndi** ..................................................151
**QARAKİLİSƏ kəndi** ..................................................153
**QASIMLI kəndi** ..........................................................153
**QAYAQOCALI kəndi** .................................................156
**KVEŞİ kəndi** ...............................................................157

**KEŞƏLİ kəndi** ....157
**KİDİKLİ kəndi** ....172
**QIZILHACILI**....174
**QIZILKİLSƏ kəndi** ....186
**QIRIXLI kəndi** ....187
**QIŞLAQ kəndi** ....190
**KİONETİ kəndi** ....191
**KOLAGİR kəndi** ....191
**QARACA kəndi** ....193
**KÖRPÜLÜ kəndi** ....194
**KOSALI kəndi** ....198
**QAÇAĞAN kəndi** ....216
**QOÇULU və ya ÇAPALA kəndi** ....224
**QOŞAKİLSƏ kəndi** ....225
**KUDRO kəndi** ....228
**QULAVAN kəndi** ....228
**QULLAR kəndi** ....229
**KİPİRİCİK kəndi** ....233
**KÜRDLƏR kəndi** ....234
**QUŞÇU kəndi** ....239
**LEÇBƏDDİNLİ kəndi** ....240
**LƏMBƏLİ kəndi** ....245
**MAQART kəndi** ....249
**MIĞIRLI kəndi** ....249
**MALICALI kəndi** ....251
**MAMAY kəndi** ....251
**MARİANA kəndi** ....252
**MARNEUL kəndi** ....254
**MARTS kəndi** ....254
**MƏSCİDKƏND kəndi** ....254
**MOLLAƏHMƏDLİ kəndi** ....255
**BÖYÜK MUĞANLI kəndi** ....256
**KİÇİK MUĞANLI kəndi** ....261
**MUSAPİRİYAN kəndi** ....264
**MUŞAVAN kəndi** ....265

**NAZARLI kəndi** ......................................................265
**OPRETI kəndi**............................................................272
**YUXARI ORUZMAN kəndi** ...................................272
**AŞAĞI ORUZMAN kəndi** ............................................274
**RUS ORMEŞENİ kəndi**...............................................274
**TATAR ORMEŞENİ kəndi** ..........................................274
**PARINCIQ kəndi** .......................................................276
**POLKOVNİKLİ kəndi** ...............................................277
**BÖYÜK ROTEVAN kəndi** ...........................................278
**KİÇİK ROTEVAN kəndi** ..........................................278
**SADAXLI kəndi** .........................................................279
**BÖYÜK SAMARİSİ (BİRİNCİ KƏMƏRLİ) kəndi** ..289
**SAMİS və ya ÇANAXÇI kəndi** ..................................292
**SAMSERİSİ kəndi** .....................................................292
**SANAİN kəndi** ...........................................................293
**YUXARI SARAL kəndi** .............................................293
**AŞAĞI SARAL kəndi** ..............................................295
**SARAÇLI kəndi** .........................................................299
**SARVAN kəndi** ..........................................................306
**SEYDİ-QOCALI kəndi** ..............................................322
**SİNİF və ya SARICA kəndi** .....................................323
**TAQUT kəndi** ............................................................324
**TƏKƏLİ kəndi** ...........................................................325
**TƏHMƏZQULU kəndi** ..............................................326
**TƏNZİYƏ kəndi** .........................................................328
**TƏRKİVAN kəndi** .......................................................329
**DAŞLIQULLAR kəndi** ...............................................329
**UZUNLAR kəndi** .........................................................330
**YENİ UZUNLAR kəndi** ...............................................331
**ULAŞLI kəndi** ..............................................................331
**FAXRALI kəndi** ..........................................................333
**XANCIĞAZLI kəndi** ...................................................341
**XATİS SOPELİ kəndi** .................................................342
**XEÇİKEX kəndi** ..........................................................343
**ERMƏNİ XOCARNI kəndi** ........................................343

**TATAR XOCARNI kəndi** ............................................343
**XOXMELİ kəndi** ......................................................344
**SATER kəndi** ..........................................................344
**YUXARI SERAKVI kəndi** ..........................................344
**AŞAĞI SERAKVI kəndi** ............................................344
**TSKNETİ kəndi** ......................................................345
**ÇƏLƏBLİ –YADİGAROV kəndi** ................................345
**ÇƏLƏBLİ-TARXANOV kəndi** ...................................347
**ÇUĞURLU** ..............................................................348
**ŞAMALI kəndi** .......................................................350
**ŞƏMDİYAN (MAHMUDLU) kəndi** ..............................351
**ŞİBİLYAR kəndi** ......................................................352
**ŞİNDİLƏR-KƏPƏNƏKÇİ (SAMARA) kəndi** ...........352
**ŞINIX kəndi** ............................................................354
**BAŞKEÇİD - ŞULAVER kəndi** ..................................354
**BÖYÜK ŞULAVER kəndi** ..........................................355
**KİÇİK ŞULAVER kəndi** ............................................355
**YAQUBLU kəndi** ......................................................355
**ALIAHVERDİ mədənçiləri** ........................................357
**BENDİK mədənçiləri** ................................................357
**YEQDAN mədənçiləri** ...............................................357
**KOQOZ mədənçiləri** ..................................................357
**ŞAMBLUQ mədənçiləri** ..............................................357
**YEKATERİNFELD icması** .........................................357
**QARA NOVRUZ (XARABA) kəndi** ...........................357
**TİFLİS QƏZASININ MƏLİKLƏRİ** .........................360
**BORÇALI NAHİYƏSİNİN AĞALARI**.......................360
**SARTAÇAL NAHİYƏSİNİN AĞALARI** ....................375
**TİFLİS NAHİYƏSİNİN AĞALARI**............................377
**BORÇALI NAHİYƏSİNİN MƏMURLARI** ................378
**BORÇALI NAHİYƏSİNİN ŞİƏ RUHANİLƏRİ**.........380
**BORÇALI NAHİYƏSİNİN SÜNNİ RUHANİLƏRİ** ...382
**BORÇALI NAHİYƏSİNİN MAAFLARI**.....................387
**TİFLİS NAHİYƏSİNİN MAAFLARI**.........................387
**BİBLİOQRAFİYA** .........................................................396

# ÖN SÖZ

# QƏDİM TÜRK YURDU BORÇALI

### *1.Borçalı bölgəsi haqqında tarixi məlumat*

Cənub-qərbi Qafqazın ərazisi (Tiflis quberniyası) hələ çox qədim zamanlardan müxtəlif türk tayfalarının yaşayış arealı olmuşdur. Lakin sonrakı müxtəlif demoqrafik və miqrasiya proseslərinin nəticəsində bu ərazilərdə başqa etnosların nümayəndələri də məskunlaşmışdır. Bu fakt orta əsrlər müəllifləri Yaqut əl-Həməvinin, Fəzlullah Rəşidəddinin və başqalarının əsərlərində yer almışdır.

Borçalı türklərinin – indiki azərbaycanlıların etnik əcdadları hələ miladdan öncəki son son yüzilliklərdən başlayaraq orta əsrlərə qədər burada məskunlaşan buntürklər, barsillər, bulqarlar, xəzərlər, qıpçaqlar, oğuzlar, qarapapaqlar olmuşdur. “Borçalı” etnonimi orta əsr müəlliflərinin əsərlərində rast gəlinir.

Rusiya tarixşünaslığı indiki Gürcüstanda türk elementinin meydana çıxmasını səhvən 1480-ci ildə Yaqub şahla bağlayır.[1] Halbuki gürcü mənbələri metaforik olsa da Makedonioyalı İsgəndərin (b.e.əvvəl IV əsr) burada yerli türklərlə vuruşduğunu etiraf edir.

Tanınmış türk tarixçisi Z.V.Togan “Borçalı” adının yaranması barədə yazır: “Barsil tayfasının böyük hissəsi hal-hazırda borçalılar adı ilə Kür çayının sağ sahilində yaşayır, bu torpaqlar vaxtilə Borçalı sancağı adı ilə qədim Qoqarenaya daxil idi.”[2]

---

[1] Алиева И. Политическое и социально-экономическое положение азербайджанцев Тифлисской губеннии (1846-1917). Баку, 2009, стр. 15.

[2] Togan Z.V.Ümumtürk Tarihinə Giriş. İstanbul, 1946, s.65.

Q.Qeybullayevə görə barsillər türk-bulqarların tərkib hissəsi olaraq sonralar qıpçaqlarla qarışaraq burcoğlu adlanmağa başlamışlar. Borçalı toponimi də buradan yaranmışdır.[3]

A.A.Bakxanov ərazinin adını Bozçalı/Borçalı şəklində işlətmiş, yəni ərazinin ilkin adının Bozçalı olduğuna üstünlük vermişdir.[4]

M.Məmmədlinin fikrincə "Borçalı" bu ərazidə yaşamış böyük türk tayfalarından birinin adı olmuşdur.[5] A.Abdulla da bu sözün barsillərin adından yarandığını ehtimal edir.[6]

Bu fikri başqa müəlliflər də müdafiə edirlər: """Borçalı" sözünün kökündə barsil tayfalarının adı əbədiləşib. Lakin barsillər indi "Borçalı" adlanan əraziyə gəldikdə oralar isti və yandırıcı günəşin təsirindən bozarmış kol-koslarla örtülü və börülərin məskən saldığı ərazi-boş çala, çöl imiş".[7]

Qeyd edək ki, 1814-cü ildə İranın Sulduz vilayətindən İrəvan xanlığının ərazisinə köçürülən[8] qarapapaqlar 1831-ci ildə tərtib edilmiş kameral təsvirdə *"qarapapaqlar",* 1842-ci ilə aid kameral təsvirdə isə *"qarapapqların bosçalı tayfası"* kimi qeydə alınmışlar.[9] (Bəzi tədqiqatçılar hesab edir ki, qarapapaqlar Göy-

---

[3] Qeybullayev Q.`Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994, s.46.

[4] Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, 2010, s.219; yenə orada, s.224.

[5] Məmmədli M.Borçalı mahalı və Qaçağan kəndi. Bakı, 2001, s.13.

[6] Abdulla A. Borçalı-alınmaz qalam mənim.//Məmmədli Ş. Paralanmış Borçalı və ya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin acı nəticəsi. Bakı, 1995, s.3.

[7] Məmmədov R., Məmmədli V. Borçalı tarixi demoqrafiya güzgüsündə. Bakı, 2001, s.8.

[8] Шопен И. Исторический памятник состояние Армянской области в эпоху ее присоединения к Российской империи. СПб, 1852, стр.446.

[9] Bax: Göyçə mahalının kameral təsviri (Tərcümə, tərtib və ön sözün müəllifi N. Əhmədli). Bakı, 2017.

çə və Dərəçiçək mahallarına Sulduz vilayətindən deyil, Borçalı mahalından köçüb[10]).

Beləliklə, tayfanın adı 4 variantda mövcuddur: boşçalı, bosçalı, bozçalı, borçalı. Borçalı adı əvvəlcə ərazi, yoxsa tayfa adı adı kimi meydana çıxıb? Əgər doğrudan da "borçalı" tayfa adı barsil tayfasının adından əmələ gəlibsə, ərazinin boş və ya boz olmasının heç bir əhəmiyyəti qalmır. Fikrimizcə, borçalı əvvəlcə tayfa adı kimi meydana çıxmış və bu tayfa yaşadığı əraziyə öz adını vermişdir.

.F.Kırzıoğlu yazır ki, qarapapaq türkləri iki qohum qanada-Borçalı və Qazax tayfalarına bölünür. Onlar əsasən maldarlıqla məşğul olurdular, sonralar isə oturaq həyata keçərək əkinçiliklə də məşğul olmağa başladılar.[11]

Digər müəlliflər də Borçalı və Qazax türklərinin etnik və etnoqafik baxımdan yaxın olduğunu göstərirlər.[12]

Mirzə Bala Borçalı adının qıpçaq tayfası burcoğlu/borçoğlu olduğunu irəli sürür.[13]

Borçalılar 1064-cü ildə səlcuq hökmdarı Sultan Alparslanın hüzuruna gələrək toplu şəkildə müsəlmanlığı qəbul etmişlər.[14]

---

[10] Hacıyev F.(Valehoğlu). Qacar ordusunun Borçalı əsilli sərkərdələri: Nağı xan və İsmayıl xan.//"XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri" mövzusunda beynəlxalq elmi konfransın materialları. AMEA Tarix İnstitutu. Bakı, 2013, s.416.

[11] Kırzıoğlu M.F.Karapapaklar. Erzurum, 1972, s.95.

[12] Зубарев Д. Борчалинская дистанция //Обозрения Российских владений за Кавказом. СПб, 1836, Ч.2, стр.280.

[13] B.Mirzə. Karapapak.İslam Ensiklopedisi, İstanbul,1977, c.6, s.452

[14] Kırzıoğlu M.F. Dede Korkut Oğuznameleri İşığında Karapapaklar. Borçalı-Kazak Uruğunun Kür-Aras Boylarındakı 1800 Yılına Bir Bakış. Erzurum, 1972, s.6.

XIII əsrin əvvəllərində muzdlu döyüşçü kimi Misirə gedən qıpçaqlar orada türk məmlük dövlətini qurmuşdular. Məmlüklərin ən böyük hökmdarı olan və səlib müharibələrində böyük qəhrəmanlıqlar göstərən Sultan I Baybars (1260-1270), Nəsrəddin Berke (1270-1279), Seyfəddin Kalavun (1279-1290) qıpçaqların borçalı tayfasındandır.[15]

Səfəvilər dövründə Borçalıdakı qıpçaq türklərinin nüfuzu xeyli artmış, rumlu, şamlı, ustaclı tayfaları kimi onlar da Şah İsmayılın ordusunda yer alaraq müxtəlif müharibələrdə iştirak etmişlər.

XVI əsrin ortalarında qarapapaqlar xeyli çoxalmış və güclənmişdilər.[16] Həmin əsrin sonlarında bölgəni fəth edən Osmanlı qoşumrələrın sərkərdəsi Fərhad Paşa Lori qalasını və Borçalı çayı boyunca yerləşən əraziləri Səfəvilərdən alıb Nəzər bəyi Nəzər paşa ünvanı ilə oraya bəylərbəyi təyin etmiş, beləliklə qarapapaq türkləri Borçalı, Qazax və Şəmşəddinin hakimi olmuşdular. Həmin vaxtdan borçalı, qazax və tərəkəmə sözləri daha çox bərabərhüquqlu sözlər kimi işlədilməyə başlanılmışdır.[17]

Gürcüstan Sovet Ensiklopeyiasına görə Borçalı Aşağı Kartlidə tarixi vilayətdir. Bu ad guya XVII əsrin əvvəllərində Debed (Borçalı – N.Ə.) çayı hövzəinə köçmüş Borçalı türkman tayfası ilə bağlıdır. İran şahı I Abbas 1604-cü ildə Kartli çarlığını digər torpaqlarla birlikdə işğal etdikdən sonra Borçalı ayrıca siyasi vahid kimi çıxış etməyə başladı. Qısa bir vaxt ərzində Borçalı xanlığı Pəmbək torpaqlarını da əhatə edirdi.[18]

---

[15] Togan Z.V.Ümumi Türk Tarihine Giriş. İstanbul, 1981, s.179.

[16] Kafkasyalı A., Karapapak Türkleri. A.Ü Türkiyat Araştırmaları Dergisi Erzurum, (TAED) 48, 2012, s.276.

[17] Yenə orada, s.275.

[18] Грузинская Советская Энциклопедия. Тбилиси, 1976, т.1, стр.209.

Məlum olduğu kimi, Nadir şah Qazax və Borçalı nahiyələrini Tiflis əyalətinin tərkibinə daxil etmişdir. A.A.Bakıxanov bu barədə yazır: "Gəncə və Qarabağ hakimləri Ziyadoğlu ləqəbi ilə, Xudafərin körpüsündən başlayaraq Sınıq körpüdən yuxarıda olan Şulaver kəndinə qədər hökmranlıq edirdilər. Bunlar, Muğanın böyük şurasında Nadir şahın səltənətinə razılıq verməyib Səfəviyyə dövlətinin bərqərar olmasını tələb edirdilər. Buna görə, Nadir şah İran səltənəti taxtına oturunca, onların əzəmət və vüqarını qırmaq istəyərək, Qarabağ əhalisindən bir çoxunu Xorasana köçürdü. Bərgüşad və Xəmsə məliklərini onların ixtiyarından çıxarıb, Azərbaycanın sərdarına tapşırdı, Qazax və Borçalı mahalı əhalisini Gürcüstan valisinin ixtiyarına verdi. Bu səbəblə həmin xanlar çox zəif düşüb, ancaq Gəncə ətrafının hökmranlığı ilə kifayətlənirdilər".[19]

Mirzə Adıgözəl bəy "Qarabağnamə" əsərində A.A.Bakıxanovun bu fikrini təkrar edir.[20]

Lakin bu mülahizələr şübhə doğurur, çünki 1736-cı ildə şah seçilən Nadir, haqqında söhbət gedən əraziləri 7 il sonra, 1743-cü ildə Tiflis əyalətinin tərkibinə vermişdir.[21] Əgər o Gəncə-Qarabağ hakimi Ziyadoğlu Şahverdi xandan qisas almaq istəsəydi, çox güman ki, 7 il gözləməzdi. Qazax və Borçalı nahiyələrinin Gürcüstanın tərkibinə daxil edilməsi, çox güman ki, əyalətin həddən artıq böyük olması səbəbindən idarəetmədəki çətinliklərlə bağlı idi.

Osmanlılar XVI əsrin sonunda ərazini işğal etdikdən sonra Gəncə-Qarabağ əyalətinin Axıstabad sancağı Qazax sancağı adı

---

[19] Bakıxanov A.A. Gülüstani – İrəm. Bakı, 2010, s.203.

[20] Mirzə Adıgözəl bəy. Qarabağnamə. Bakı, 2006, s.36.

[21] Ağasıyev İ. Azərbaycan tarixi sxemlərdə, xəritələrdə, cədvəllərdə. Bakı, 2015, s.150.

ilə, Gəncə qəzasının Dəmirçihəsənli nahiyəsi isə Dəmirçihəsənli nahiyəsi adı ilə Tiflis ətalətinə verilmişdi.[22] Bu ərazilər Tiflis əyalətinin tərkibinə verildikdən sonra da Gəncə-Qarabağ əyaləti osmanlıların Qafqazda ələ keçirdikləri torpaqlarda yaratdıqları ən böyük ərazi-inzibati vahid olmuşdur.[23]

P,Q.Butkov Borçalı və Qazax bölgələrinin tabeçiliyinin dəyişdirilməsi barədə yazır: "Nadir şah Kaxet çarı Teymurazı arvadı, əvvəlki çar VI Vaxtanqın qızı Tamaranın xahişi ilə yenidən həmin vəzifəyə təsdiq etdi, Gürcüstanın osmanlılardan azad edilməsindəki xidmətlərinə, Surxay xanın tərəfinə keçmiş Krım tatarlarını məğlub etdiyinə, özünü Sultan Hüseynin oğlu kimi qələmə verərək üsyan qaldran və sonra da Gürcüstana gələn yalançı Sam [Mirzəni] tutub ona verdiyinə görə Kartli torpaqlarndan Araqva vilayətini, əvvəllər Gəncə xanlığına tabe olan iki vilayəti – Borçalı və Kizik (Qazax – N.Ə.) vilayətlərini də ona verdi".[24]

Xəmsə məliklərinin Azərbaycan valisinə tabe etdirilməsinin səbəbi onların osmanlılara qarşı mübarizədə Nadirə fəal kömək etməsi ilə bağlı idi: "Ermənilər Nadirə xidmət göstərdilər. Gəncədəki osmanlı korpusunun komandanı Sarı Mustafa paşa şəhərdəki bir evdə, əsgərlər isə erməni məliyi Avanın mülklərindəki evlərdə yaşayırdılar. Məlik Avan gizlicə Nadirlə danışığa girdi və 1733-cü ildə onun işarə verməsi ilə hər bir ev sahibi bir gecənin içində osmanl əsgərini öldürdü. Bütün korpus məhv edildi, Sarı Mustafa paşa İrəvana qaçmaqla canını qurtara bildi.

---

[22] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı)). Bakı, 2000, s.6.

[23] Yenə orada, s.7.

[24] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. СПб. 1869, ч.1, стр.116.

Nadir onları mükafatlandırdı, hər bir məliyi öz yerinə təsdiq etdi və onların tabeçiliyini dəyişərək bir başa şaha tabe etdi”.[25]

Erməni yazıçısı Raffi də bu hadisəni təsvir etmişdir: “Bu vaxt türk ordusunun Ali baş komandanı Sarı Mustafa paşa əsas qüvvələri ilə Gəncədə yerləşmişdi, qoşunun qalanı Qarabağ məliklərinin vilayətlərində idi. Məliklərin içərisində böyük sayılan Məlik Avan türk paşasının ona dostyana münasibətindən və inamından istifadə edərək böyük bir sui-qəsd təşkil etdi. Bütün məliklər onun ətrafında birləşdilər. Sui-qəsd Böyük orucluğun ilk gününə təyin edilmişdi. Həmin gecə ermənilər Qarabağ və Gəncədə olan bütün osmanlı qoşununu qırdılar. Soyuq qış günlərində əsgərlər erməni evlərində yaşayırdılar. Hər bir ev sahibi evindəki çağırılmamış qonağı öldürdü, yalnız Sarı Mustafa paşa İrəvana qaçaraq canını qurtara bildi. Bu maraqlı hadisə 1733-cü ildə baş verdi”.[26]

Raffi bu tipik erməni xəyanətini “maraqlı hadisə” adlandırır.

1736-cı ildə çağırılan Muğan qurultayında taxta çıxan Nadir onun iştirakçılarına hədiyyələr verdi, erməni məliklərinin osmanlı qoşununa qarşı həyata keçirdiyi qətli də mükafatlandırdı. O, xüsusi bir fərmanla məliklərin hər birinin irsi hüququnu təsdiq etdi, hər birinə müəyyən xərac verməklə öz vilayətini suveren idarə etmək hüququ verdi. Bir neçə məliyə yüksək titul verildi, Dizax məliyi Məlik Avana (Yeqan) xan titulu verildi.[27]

Gəncə-Qarabağ əyaləti əhalisinin bir hissəsinin Xorasana köçürülməsini də onlara qarşı tətbiq edilən cəza tədbiri saymaq düzgün olmazdı. Adətən, dövlət sərhədləri təhlükəyə məruz qalanda, müdafiə tədbiri olaraq oraya döyüşkən tayfaları yer-

---

[25] Там же, стр.116.

[26] İnternet resursu: https://4italka.su/nauka_obrazovanie/istoriya/132137/fulltext.-htmRaffi. ( 27.01.2024-cü ildə götürülmüşdür).

[27] Yenə orada.

ləşdirirdilər. Hələ Şah İsmayılın vaxtnda türkmən yürüşlərindən qorunmaq üçün kəngərlilərin bir hissəsi Xorasan yaxımnlığındakı Nəsa mahalında yerləşdirilmişdi.[28] Hazırda Məşhəd şəhəri yaxınlığında koimpakt şəkildə yaşayan və sayları 2 milyona yaxın olan qaraçorlular da həmin məqsədlə oraya köçürülmüşlər.[29]

Tiflis əyalətinin 1728-ci il tarixli müfəssəl dəftərindən də məlum olur ki, Osmanlı hökuməti 1724-cü il işğalı zamanı Borçalı və Qazax bölgələrini Tiflis əyalətinə daxil etmişdi.

Beləliklə, A.A.Bakıxanovdan başlayaraq Nadirin qisas məqsədi ilə Borçalını Gürcüstan çarının tabeliyinə verməsi haqqında hökm sürən mülahizə özünü doğrultmur.

Nadir şahın ölümündən sonra başlayan ara müharibələri nəticəsində Borçalının türk əhalisindən 1.000 ailə buranı tərk etsə də, türk əhali regionda hələ də o qədər güclü nufuza malik idi ki, Kartli-Kaxetiya çarları onlarla hesablaşmağa məcbur olmuşdular. Məsələn, II İrakli Hacı Məhəmmədəli bəyi və Mirzə Rəbiəni Kartli-Kaxetiya çarlığına vəzir götürmüşdü.

1783-cü ildə imzalanmış Georgiyevsk müqaviləsi ilə Kartli-Kaxetiya çarlığı Rusiya imperiyasının himayəsinə girdi. Həmin vaxt Borçalı, Qazax, Şəmşəddil və Pəmbək mahalları da çarlığın tabeliyində idi. Müqavilənin şərtlərinə görə Rusiya Gürcüstanın daxili işlərinə qarışmayacaq, onu xarici təhlükələrdən qoruyacaqdı.

---

[28] Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - в начале XVII вв. Ленинград, 1949, стр. 69.

[29] Qarabağ xanlığının inzibati-ərazi vahidlərindən biri də Qaraçor mahalı idi. Rusiya işğalından sonra Azərbaycan valisi, vəliəhd Abbas Mirzə 1813-cü ildə qaraçorluları Şərqi Dərələyəzə köçürmüşdü. Onların təxminən yarısı isə öz yerlərində-indiki Laçın rayonunun ərazisində yaşamaqda davam etmişlər.

1795-ci ilin sentyabrında Ağaməhəmməd xan Qacar Gürcüstana yürüş edib Tiflisi tutdu, separatçıları cəzalandıraraq dağıntılar törətdi, lakin İrandakı daxili iğtişaşlar səbəbindən geri qayıtdı. Rusiya imperiatriçəsi II Yekaterina 1796-cı ildə Cənubi Qafqaza general V.Zubovun komandanlığı ilə 30 minlik ekspedisiya korpusu göndərdi. Rusiya Gürcüstanı yenidən öz nüfuz dairəsinə qaytardı. Ağa Məhəmməd xanın 1797-ci ildə Şuşada öldürülməsi Rusiyanın Gürcüstan üzərindəki nüfuzunu artırdı.

1798-ci ildə Gürcüstan çarı II İrakli vəfat etdi və oğlu XII Georgi onu taxt-tacda əvəz etdi. 1799-cu ilin 18 aprelində Rusiya impertoru I Pavel XII Georgini Gürcüstan çarı, oğlu XII Davidi isə taxt-tacın varisi elan etdi. 1800 ilin 22 dekabrında Pavel ölüm ayağında olan XII Georginin müraciəti ilə Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifest imzaladı. Bu manifest 1801-ci ilin yanvar ayında Moskva və Peterburqda, fevral ayında isə Tiflisdə elan edildi və beləliklə Gürcüstan çarlığı və onunla birlikdə adı çəkilən mahallar da Rusiya tərəfindən ilhaq edildi.

Rusiya işğalından sonra qarapapaqların böyük bir qismi əvvəlki yaşayış yerlərinə - Sulduza qayıtdılar.

Cənub-qərbi Qafqazın Rusiya tərəfindən ilhaq edilməsindən sonra yerli müsəlman əhalini sıxışdırmağa başladılar.

Rusiya hökuməti işğal etdiyi Cənubi Qafqazda hərbi komendant üsuli-idarəsi yaratmaqla müxtəlif bölgələrdə müxtəlif tipli inzibati-ərazi vahidləri yaradırdı. 1805-ci ildə Gürcüstanın tərkibindəki keçmiş müsəlman mahallarında Tiflis qəzasına tabe olan Borçalı, Qazax, Şəmşəddil və Pəmbək-Şürəyöl distansiyaları yaradılıdı. Distansiyalara irsən rəhbərlik edən gürcü mourovlarının yanında pristavlar və yerli əhalinin dilini bilən tərcüməçilər vardı. Gürcüstana yeni hakim təyin edilən

A.P.Yermolov idarəetmədə rus təsirini gücləndirmək üçün yeni qaydalar müəyyən etdi. Onun 15 iyul 1810-cu il tarixli qərarı ilə pristav vəzifəsinə istefada olan rus zabitləri təyin olunmağa başlandı.[30]

Kartli-Kaxetiya çarı Borçalı, Qazax və Şəmşəddil mahallarına yerli türk ağalarından bir nəfər səlahiyyətli nümayəndə - vəkil təyin edirdi. Onların səlahiyyəti digər ağalardan xeyli geniş idi və yalnız öz mülkiyyətində olan kəndləri deyil, bütün mahalı əhatə edirdi. Borçalı vəkilləri Ağcaqala yaxınlığındakı Araplı kəndində yaşayırdılar.

Borçalıda vəkildən başqa böyük səlahiyyətə malik Baydar və Dəmirçihəsənli sultanları da var idi. Bu sultanlar mahalda ayrıca idarəçilikləri altında olan ərazilərə sahib idilər. Vəkillik və sultanlıq irsən ötürülürdü. Şəmşəddil mahalında vəkil vəzifəsi yox idi və onun səlahiyyətlərinə malik olan şəxs "Sultan" adlandırılırdı.[31]

Keçmiş tatar distansiyaları Qazax, Borçalı və Şəmşəddildə polis funksiyası ağa adlanan şəxslərin əlində idi. Bu rütbə hər hansı bir vəzifə ilə bağlı deyildi, çünki gürcü çarları, türk sultanları və İran şahları kəndlərin idarəçiliyindən kənarlaşdırdıqları şəxsləri ağa rütbəsindən məhrum etmirdilər. Ağalar idarə etdikləri kəndlərdə polis məmurlarına oxşar olaraq qayda-qanuna və asayişə nəzarət edir, şikayətlərə baxır, xəzinəyə çatan vergi və mükəlləfiyyətləri toplayırdılar. Onlara nəzarəti isə yuxarı orqanlar həyata keçirirdilər. Ağalar bu işə görə müəyyən miqdarda vergi və mükəlləfiyyət alır, sakinlərin xidmətindən istifadə edirdilər. Knyaz Bebutovun ağaların saxlanmasının xüsusi üsulları haqqındakı təqdimatını gözdən keçirən Baron Qan belə qənaətə gəlmişdi ki, distansiyalarda ağaların mövcudluğu əhali üçün böyük qanunsuzluğun

[30] Valehoğlu F. XIX əsr Borçalı əhalisinin imtiyazlı zümrələri kameral təsvirlərdə. Bakı, 2021. s.6.
[31] Yenə orada. s.8.

və soyğunçuluğun mənbəyidir, çünki əhali hökumətə ödədiklərindən iki, hətta üç dəfə artıq ağalara ödəyirlər.[32]

Qədim türk torpağı Borçalı sovet hakimiyyətinin qurulması ilə tarixinin ən faciəli və süqut mərhələsinə daxil oldu. 1880-ci ildə yaradılan Borçalı qəzasının 35 %-i Sovet Ermənistanına verildi,[33] 1929-cu ildə əvvəlki Borçalı qəzası ləğv edilərək onun yerində cəmi 3 rayon – Borçalı (Marneuli), Lüksemburq (Bolnisi) və Başkeçid (Dmanisi) rayonları yaradıldı. Bu rayonların ümumi sahəsi cəmi 2.655 kv. km idi. Həmin vaxt artıq (1918-ci ildən) Lori Ermənistan tərəfindən zəbt edilmiş, onun qalan hissəsi isə Gürcüstanın Tetrisqaro, Zalqa və başqa rayonlarına birləşdirilmişdi.[34]

Borçalı qəzası Rusiyadakı 1917-ci il çevrilişindən sonra da Tiflis quberniyasının tərkibində ayrıca inzibati-ərazi vahidi kimi qalmışdır.[35]

Borçalı distansiyası və onun yerində yaradılmış Borçalı nahiyəsi şimalda Tiflis və Qori qəzaları, şərqdə Sığnaq qəzası və Qazax distansiyası, cənubda Pəmbək və Şürəyöl distansiyası, qərbdə isə Axalsıx və Türkiyənin Qars paşalıqları ilə həmsərhəd idi.[36]

Borçalı nahiyəsinin sıx meşələrlə örtülmüş şimal və qərb hissələri, cənub hissəsinin bir qismi dağlıq, şərq hissəsi isə geniş düzənliklər idi.

Burada Babakər, Yeldəyirmanı, Muşul, Qızıldaş, Duman və başqa dağlar, Başkeçid (18.000 desyatin), Borçalı (30.000 d.), Baydar (25.000 d.), Dəmirçihəsənli (40.000 d.), Muğanlı

---

[32] Зелинский С.П. Государственный крестьян Закавказского края.//Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Тифлис, 1887, Т.2, стр.70-71

[33] Бадалян А. Население Армении со времени присединение ее к России и до наших дней. Известия АН Армянской ССР, №5, 1953, стр. 51.

[34] Məmmədov R., Məmmədli V.., s.29.

[35] Valehoğlu F,.. səh.11.

[36] Обозрение Российских владений за Кавказом. СПб 1836, Ч.2, стр..267

(10.000 des.) Təkəli (2.000 desyatin) adlı düzənliklər var. Borçalı düzənliyi ən münbit torpaqlara malikdir. Xram və Debed çayları ilkə suvarılan Borçalı düzənliyində taxılın məhsuldarlığı 20 sam[37] idi.

Borçalı nahiyəsinin torpaqları məhsuldar idi. Borçalı və Baydar düzənliklərinin torpağı qaratorpaq, dağlıq yerlər daş-kəsəkli, bəzi yerlərdə gilli, Başkeçid, Dəmirçihəsənli və Muğanlı düzünün torpaqları isə gilli torpaqlar idi.

Borçalı, Dəmirçihəsənli, Baydar və Muğanlı düzənliklərinin iqlimi yayda isti, Başkeçiddə mülayim, dağlıq ərazilərdə isə sərin idi.

Borçalı nahiyəsinin şimal-şərq və şərq hissəsi Kür, Xram, Debed (Borçalı), Maşaveri, Alqet çaylarından çəkilmiş arxlarla suvarılırdı.

Tiflisdən Qarsa, Axalsixə, Qazaxa, Yelizavetpola, Qarabağa, oradan İrana, eləcə də İrəvana gedən yollar Borçalıdan keçirdi.

### *2.İnzibati-ərazi bölgüsü*

Borçalı nahiyəsi Səfəvilər dövründə Azərbaycan vilayətinin tərkibindəki 4 bəylərbəylikdən biri olan Gəncə-Qarabağ bəylərbəyliyinə tabe idi.

1728-ci ildə osmanlılar tərəfindən tərtib edilən "Tiflis əyalətinin müfəssəl dəftəri"ndə tarixi Borçalı bölgəsini əhatə edən 6 nahiyə və 2 livadan yalnız ***Ağcaqala livasının*** əhalisi ***bozçalı/borçalı əşirəti*** kimi göstərilmişdir. Bu əşirətə aşağıdakı oymaqlar və camaatlar daxil idi:[38]

***Qaral oymağının*** Böyük Qaçağan, Orta Qaçağan, Hacılı, Kiçik Qaçağan, Qılıçlı və Kohalı camaatları;

---

[37] Çar Rusiyasında işlədilən "sam" termini əldə edilən məhsulun səpilən toxumdan neçə dəfə artıq olduğunu göstərən termin idi.

[38] Bax: Tiflis əyalətinin müfəssəl dəftəri. Borçalı və Qazax. 1728-ci il (Ön söz, tərcümə və şərhlərin müəllifi akad. Ş.Mustafayev). Bakı, 2022.

***Təkəli oymağının*** Quşçular, Kürdlər, Böyük Heydərli, Kiçik Heydərli, Qaroğlu və Qaramanlı camaatları və Yaraqlı, Qaraxanlı, Qarcalı və Ağaməhəmməd qışlaqları;

***Ağaməhəmməd (digər adı Pirvəli) oymağının*** Mehanə, Şimalı, Şəmsəddinli, Saatlı, Kiçik Saatlı, Digər Mehanə camaatlarıı***;*** Böyük Dəhnə və Kiçik Dəhnə məzrəələri (bu iki məzrəə Ağməhəmməd oymağına tabe olan Qaçay adlı yerin yaxınlığındadır);

***Saral oymağının*** Fəqihli, Səbihan, Digər Fəqihl, Keçirdan, Heydərli, Korlar və Zəngənə camaatları; həmin oymağın Əskisaqi məzrəəsi;

***Ərəbli oymağının*** Mahmudlu, Qayaqocalı, Pəhləvanlı, Seyidqocalı, Böyük Ulaşlı, Orta Ulaşlı, Kiçik Ulaşlı və Xanəhmədli[39] camaatları;

***Tərkivan oymağının*** Kiçik Ulaşlı camaatı; Türvəndəli camaatı Canəhmədli ilə birlikdə; Bozanlı camaatı Canəhmədli ilə birlikdə; Aşıqlı camaatı Canəhmədli ilə birlikdə; Quyumluca camaatı Canəhmədli ilə birlikdə; Soğanlı camaatı Canəhmədli ilə birlikdə; Həsənxocalı camaatı;

Qaraboya kəndi; Yuxarı Qazankənd kəndi; Musa məzrəəsi; rəiyyəti olmayan Üçkilsə, Yeldəyirmanı, Ağbaba, Qaraxankəndi, Suvalı, Qızılqaya, Artis, Əmabəy, Qurma, Amidan, Güləbdi və Karrac kəndləri; Şahablı qışlağı; Dərəkəndi və Gülkəndi camaatları; Sınıq kəndi Kükürd məzrəəsi ilə birlikdə; Aşağı Qazankənd kəndi; Ahpat kəndi; Kolalı kəndi; Yeldəyirmanı adlı yerdəki Dəmqulu məzrəəsi;

***Hansı oymağa daxil olduğu göstərilməyən*** Göyçəli, Heydərli, Qarahəsənli, Köçkar, Ulaşlı-yu Qoyunluca, Bozanlı, Özən-

---

[39] Fikrimizcə, bu Canəhmədli camaatıdır. Müfəssəl dəftərin yazıldığı siyaqət xəttində nöqtə qoyulmadığından, müəllif onu Xanəhmədli oxumuşdur.

li, Qəribli, Seyidqocalı, Pəhləvanlı, Qayaqocalı, Mahmudlu, Şimali, Şəmsəddinli və Zəngibalı camaatları.[40]

Oxuculara təqdim etdiyimiz Borçalı nahiyəsinin 1860-cı il tarixli kameral təsvirində bu oymaq və camaatların bir çoxunun adına rast gəlirik: Qaral, Qaçağan, Qılıçlı, Təkəli, Quşçu, Kürdlər, Saral, Ərəbli, Qayaqocalı, Seyidqocalı, Ulaşlı, Canəhmədli, Tərkivan, Həsənxocalı və s. kəndləri. Kameral təsvirdə ***Baratlı nahiyəsindəki*** Darbaz, Şulaver, Ormaşun, Balic (Baliçi), Kolagir, ***Baydar nahiyəsindəki*** Kürdlər, Muğanlı, ***Dəmirçihəsənli nahiyəsindəki*** Arıqlı, Sarvan, Kürdlər, Dəmirçihəsənli, Qəmərli (Kəmərli), Kəpənəkçi, Keşəli, Sofulu (?), ***Somxit nahiyəsindəki*** Bolnis, ***Pəmbək nahiyəsindəki*** Yaqublu, Kosalar, Darbaz, Qaçağan, Hamamlı kəndləri də var.

***Ağcaqala nahiyəsindəki*** Böyük Dəhnə, Kiçik Dəhnə, Zəngənə, Şahablı, ***Baratlı nahiyəsindəki*** Qarababa, Ağbaba, Darbaz, Göyərçin, ***Baydar nahiyəsindəki*** Padar, Zəngişa(m)lı, Dəl(i)lər, ***Dəmirçihəsənli nahiyəsindəki*** Saatlı, Qaramanlı, Qaracalar, Sarvan, Muğanlı, Bəyəhmədli, Qəmərli, Sofulu, Saraçlı, Sabunçu, ***Taşır nahiyəsindəki*** Ağdaş, Söyüdlü, Çaxmaqlı, Qaraqala, ***Pəmbək nahiyəsindəki*** Ağbulaq, Sarıcalı, Qaraboya və s. kimi yer adları Cənubi Qafqaz türkllərinin yaşadığı digər ərazilərində də tez-tez rast gəlinən toponmlərdir. Pəmbək nahiyəsindəki ***Borçalı*** kəndi isə xüsusi maraq doğurur.[41]

Fikrimizcə, bu, geniş şəkildə araşdırılması vacib olan mövzudur.

1728-ci il tarixli Tiflis əyalətinin müfəssəl dəftərində Borçalı bölgəsi ayrıca inzibati-ərazi vahidi kimi göstərilməyib. Bölgə üzrə ənənəvi inzibati-ərazi bölgüsünü, 1721-ci ildə həyata keçiri-

---

[40] Bax: Tiflis əyalətinin müfəssəl dəftəri. Borçalı və Qazax...

[41] Yenə orada.

lən Kartli siyahıyaalınmasını, Vaxuştinin xəritəsini və 1880-ci ildə yaradılan Borçalı qəzasının sərhədlərini nəzərə alan, müfəssəl dəftəri nəşrə hazırlayan akademik Ş.Mustafayev Borçalı ərazisinin Tiflis əyalətindəki Baratlı, Tumanis, Baydar, Dəmirçihəsənli, Taşır, Pəmbək nahiyələri, Somxit və Ağcaqala livalarından ibarət olduğunu göstərmişdir.[42]

Rusiyada 1840-cı ildə qəbul edilən və 1 yanvar 1841-ci ildən qüvvəyə minən qanuna görə inzibati-ərazi idarəetməsində dəyişikliklər həyata keçirildi. Yeni qanunla Cənubi Qafqazda komendant üsul-idarəsi ləğv edilərək Rusiyanın daxili əyalətlərində olduğu kimi 3 pilləli – ali, quberniya və qəza - nahiyə inzibati-ərazi idarəetməsinə keçildi.[43] Cənubi Qafqaz iki inzibati-ərazi vahidinə bölündü. Onlardan biri mərkəzi Şamaxı şəhəri olmaqla Kaspi vilayəti, ikincisi isə mərkəzi Tiflis olmaqla Gürcüstan-İmeretiya quberniyası idi.

"Tatar" dcistansiyaları nahiyəyə çevrilməklə Qazax və Şəmşəddil nahiyələri Gürcüstan-İmeretiya quberniyasının Yelizavetpol qəzasına, Borçalı nahiyəsi ilə əvvəlki Tiflis qəzasının tərkibinə daxil edildi.[44]

1840-cı il islahatı zamanı müsəlmanlar yaşayan ərazilərdə həm Rusiya qanunları, həm də yerli adət-ənənələri nəzərə alaraq şəriət məhkəmələri tərəfindən həyata keçirilən ədalət mühakiməsi ləğv edildi, şəriət məhkəməsi yalnız ailədaxili məhkəmə çəkişmələri və boşanmaq məsələsində saxlanıldı, yerli imtiyazlı əhali – bəy və naiblərin məhkəmədə iştirakını ləğv edərək bu hüququ rus məmurlarına verdilər.

---

[42] Yenə orada, s.8.

[43] ПСЗ Российской империи, собрание 2-е. Т.14, отделение 1-ое, СПб, 1841, ст.13368.

[44] Там же.

1844-cü ildə idarəetmənin effektliyini artırmaq məqsədilə Gürcüstan Ali hökuməti ləğv edilərək onun yerində canişinlik yaradıld.[45] Qafqazın bütün hərbi və mülki hakimiyyəti yalnız imperatorun qarşısında hesabatlı olan canişinə məxsus idi. Onun idarəsi altında olan ərazi Qafqaz diyarı (mərkəzi Tiflis şəhəri) adlanırdı. M.S.Vorontsov bu vəzifəyə təyin edilən ilk şəxs olmuşdur.

1846-cı ildə Gürcüstan – İmeretiya quberniyası Tiflis və Kutaisi quberniyalarına bölünmüş, Borçalı nahiyəsi Tiflis qəzasının tərkibində saxlanıldı.[46]

Tiflis quberniyasınn yaranması ilə mülki işlər də daxil olmaqla bütün hakimiyyət hərbi qubernatora verildi. Qəza məhkəmələrini əvəz edən quberniya məhkəməsi yaradıldı. Cənubi Qafqazın Rusiya imperiyasına daxil edilməsi ilə buranın türk əhalisi yeni inzibati-ərazi və sosial-iqtisadi şəraitə düşdülər. Tabeçilik münasibətləri, vergi sistemi dəyişdi, Rusiya hökuməti yeni nəzarət qaydaları və mühafizə tədbirləri, cərimə sanksiyaları tətbiq etdi, hərəkət azadlığı məhdudlaşdırıldı, Tiflis quberniyasının türk-müsəlman əhalisinin sosial-iqtisadi inkişafı ləngidildi.

1880-ci ildə Tiflis qəzasının bir hissəsində Borçalı qəzası təşkil edildi. Bu qəzaya Borçalı, Lori və Trialet pristavlıqları daxil idi.[47]

Borçalı qəzasının tərkibində olan Borçalı pristavlığındakı türk-müsəlman əhali Hamamlı, Əngirəvan, Bəzəkli, Canbağça, Carayer, Qədirqulu, Qaşqatala (?), Məmişli, Mahmudlu, Yuxarı Oruzman, Aşağı Oruzman və Səfərli kəndlərinin daxil olduğu ***Hamamlı kəndlər icmasında;***

---

[45] ПСЗ, Российской империи, собр. 2-ое, т.15, ч. 2-ое, СПБ 1844, ст.18679.

[46] ПСЗ Российской империи, собр. 2-ое, т.24, ч. 2-ое, СПБ 1850, ст.23303.

[47] ПСЗ Российской империи, собр. 2-ое, т.42, ч. 2-ое, СПБ 1871, ст.45259.

Arıxlı, Həsənxocalı, Əsmələr (?), Salehoğlu – Sisqala və Daşdıqullar kəndlərinin daxil olduğu ***Arıxlı kəndlər icmasında;***

Baydar, Böyük Bəylər, Kiçik Bəylər, Gültəpəli, Kürdlər, Leçbəddin, Böyük Muğanlı və Kiçik Muğanlı kəndlərinin daxil olduğu ***Baydar kəndlər icmasında;***

Abdallı, Bolnis-Kəpənəkçi, Cəfərli, Qışlaq, Mığırlı, Muşevan və Şibilər kəndlərinin daxil olduğu ***Bolnis Kəpənəkçi kəndlər icmasında;***

Görarxı və İvanbəyli (?), kəndlərinin daxil olduğu ***Görarxı kəndlər icmasında;***

Arakel, Bəytərəfçi, Yuxarı Güləver, Aşağı Güləver, Darbaz, Cirisi (?), Zolgüvəc (keçmiş Kveşi), Kipricik, Musaprian və Ormeşən kəndlərinin daxil olduğu ***Darbaz kəndlər icmasında;***

Ambarovka, Kəpənəkçi-Dəmirçihəsənli, İlməzli, Qarakeşəli, Kosalı və Keşəli kəndlər icmasının daxil olduğu ***Dəmirçihəsənli kəndlər icmasında;***

Cücəkənd, Busuqala, Yuxarı Gödəkdağ, Aşağı Gödəkdağ, Dunus, Böyük Kəmərli, Kakliani (?), Böyük Qarabulaq, İsiqaplı (?) Qarabulaq, Kiçik Qarabulaq, Qızılkilsə, Məryəmli, Saca (?), Qaqma-Sakarisi, Salamməlik, Təhməzqulu-Qızılhacılı, Tənziyə, Şindilər-Kəpənəkçi, Şarşolet, Başkeçid Şulaveri və Yaqublu kəndlərinin daxil olduğu ***Kəmərli kəndlər icmasında;***

Ağammədli, Baytallı, Baraxlı, Bəytərəfçı, Canəhmədli, Qasmlı, Qaçağan, Quşçu, Təkəli, Ulaşlı, Xancığazlı və Çələbli Yadigarov kəndlərinin daxil olduğu ***Qaçağan kəndlər icmasında;***

Körpülü və Ləmbəli kəndlərinin daxil olduğu ***Körpülü kəndlər icmasında;***

Hallavar, Candar, Kolagir, Qızılhacılı, Güləver və Kiçik Muğanlı kəndlərinin daxil olduğu ***Qızılhacılı kəndlər icmasında;***

Qırıxlı, Qullar, Şamalı və İmir kəndlərinin daxil olduğu ***Qırıxlı kəndlər icmasında;***

Köhnə Axtala, Mamay, Sadaxlı, Xocornı və Çoşka-Ayrım kəndlərinin daxil olduğu ***Sadaxlı kəndlər icmasında;***

Araplı, Aıllələli, Axılmahmudlu, Dəmyə Gorarxı, Qayaqocalı, Yuxarı Saral, Aşağı Saral və Seyidxocalı kəndlərinin daxil olduğu ***Saral kəndlər icmasında;***

İmirhəsənli, Böyük Qoşakilsə, Kiçik Qoşakilsə, Molla Əhmədli və şalbuzlu kəndlərinin daxil olduğu ***Saraçlı kəndlər icmasında;***

***Sarvan kənd icmasında;***

Qoçulu və Faxralı kəndlərinin daxil olduğu ***Faxralı kəndlər icmasında*** yaşayırdlar.[48]

Kəndlər icmasını qlava, kəndləri osə koxalar idarə edirdilər.

***3.Əhali və demoqrafiya***

Rusiya Cənubi Qafqazı işğal etdikdən sonra effetiv vergi praktikasını tətbiq etmək üçün vaxtilə osmanlıların tərtib etdiyi təhrir dəftərlərinə oxşar anolpji sənədlər-kameral təsvirlər tərtib edildi. Rusiya imperiyasında tərtib edilən bu tip sənədlər ilk dəfə 1762-ci və 1764-cü illərdə Belarusiya ərazisində - yenicə işğal edilmiş Şərqi Polşa torpaqlarında tərtib edilmişdir. 1783-cü ildə ilhaq edilmiş Krım xanlığının ərazisində də ilhaqdan 1 il sonra kameral təsvir tərtib edilmişdir. Kameral təsvirlərin əsas funksiyası vergi tutmaqla bağlı olsa da, bu sənədlərdən əhalinin etnik tərkibi, demoqrafiyası və s. haqqında müxtəlif məlumatlar da əldə etmək mümkündür.

Borçalı distansiyası üzrə ilk kameral təsvir 1804-cü ildə, sonra isə 1817-ci ildə tərtib edilmişdir. 1821-ci ildə dövlət, 1823-cü ildə isə mülkədar kəndliləri üzrə kameral təsvirlər,

---

[48] Аргутинский-Долгоруков А.М. Борчалинский уездъ в экономическом и коммерческом отношениях. Тифлис, 1897, стр.248-271.

1831-ci ildə dövlət və mülkədar kəndliləri, 1832-ci ildə isə kilsə kəndliləri üzrə daha 2 kameral təsvir tərtib edildi.

1831-ci və 1832-ci ilin kameral təsvirlərinə görə Borçalı distansiyasındakı 145 kənddə 4.092 ailə və kişi cinsindən 13.762 nəfər yaşayırdı ki, bunun 8.479-u tatar (Azərbaycan türkü), 3.634-ü erməni, 767-i yunan, 669-u gürcü, 313-ü isə alman idi. Beləliklə, əhalinin 61,6 %-i türk müsəlman, 26,4 %-i erməni, 5,57 %-i yunan, 4,86 %-i gürcü və 2,27 %-i alman idi.

Borçalıda və Almaz Sultanın rəhbərliyi ilə kəndlərdə yaşayan müsəlmanlar şiə, Dəmirçihəsənli bölgəsində yaşayanlar isə sünni məzhəbinə mənsub idilər.[49] Borçalı müsəlmanları, xüsusilə şiələr fanatik deyildilər. bütün Borçalıda bir dənə də məscid yox idi.[50]

Borçalı nahiyəsi üzrə növbəti kameral təsvirlər 1843-cü, 1860-cı, 1873-cü və 1886-cı illərdə tərtib edilmişdir. 1886-cı ildə tərtib edilmiş son kameral təsvir Əyal (ailə) dəftəri də adlanır.

Borçalı nahiyəsinin oxucalara təqdim etdiyimiz 1860-cı il tarili 3 saxlama vahidindən ibarət, rus dilində tərtib olunmuş kameral təsviri Gürcüstan Milli Tarix Arxivində F.254, s.2, s.v.229, və F.254, s.2, s.v.240 şifrələri ilə saxlanılır. 229 nömrəli saxlama vahidi 2 cilddən ibarətdir. Kameral təsvirdəki inzibati-ərazi vahidləri-kəndlər rus əlifbası sırası ilə düzülmüşdür.

Kameral təsvirdə Borçalı nahiyəsində 164 kənd qeydə alınmışdır ki, onun 110-da yalnız Azərbaycan türkləri, 31-də

---

[49] Зубарев Д. Борчалинская дистанция. // Обозрения Российских владений за Кавказом. СПб, 1836, Ч.2, стр.275-278.

[50] Там же, стр.279.

ermənilər, 5-də gürcülər, 4-də ruslar, 3-də yunanlar, 1-də almanlar yaşayırdı, 10 kəndin əhalisi qarışıq idi. Kolagir kəndində tatarlarla ermənilər, 7 kənddə (Akaurta, Baliçi, Baslebi, Böyük Dumanis, Kiçik Dumanis, Kozreti və Böyük Rotevan kəndlərində) gürcülərlə ermənilər, Bendik kəndində yunanlar və ermənilər, Alaverdi kəndində isə yunanlar, ermənilər və gürcülər qarışıq yaşayırdılar. Əhalisi qarışıq olan Kolagir kəndi ilə birlikdə Azərbaycan türkləri 111, əhalisi qarışıq olan kəndləri də nəzərə alsaq ermənilər 42, gürcülər 14, yunanlar isə 5 kənddə yaşayırdılar.

Borçalı nahiyəsinin ən böyük kəndi 344 ailənin yaşadığı Böyük Şulaver kəndi (1.227 kişi, 1.040 qadın, cəmi 3.267 nəfər), ən kiçik kəndləri isə 2 ailənin yaşadığı Sarıca kəndi (9 kişi, 11 qadın, cəmi 20 nəfər), 2 ailənin yaşadığı Əngirevan kəndi (10 kişi, 12 qadın, cəmi 22 nəfər), 3 ailənin yaşadığı Cəfərli (10 kişi, 13 qadın, cəmi 23 nəfər), əhalisi erməni olan 2 ailənin yaşadığı Kudro (6 kişi, 5 qadın, cəmi 11 nəfər) kəndləri idi.

Türklərdə hər 100 kişiyə 85, ermənilərdə 82, yunanlarda 87, gürcülərdə 81, ruslarda 125, almanlarda isə 109 qadın düşürdü.

Tatarlarda 1 ailəyə 7,4, ermənilərdə 8, yunanlarda 6,6, gürcülərdə 7,6, ruslarda 6, almanlarda isə 4,7 nəfər düşürdü.

1860-cı ildə Borçalı nahiyəsində cəmi 5.207 vergi mükəlləfiyyətli ailə qeydə alınmışdır ki, onun 3.413-ü tatar, 1.232-i erməni, 171-i yunan, 134-ü alman, 133-ü rus, 124-ü gürcü ailələri idi. Beləliklə, türklər ailə hesabına görə 65,55 % və ya əhalinin 2/3-ni təşkil edirdilər.

Kameral təsvirə görə Borçalı nahiyəsində 38.704 vergi mükəlləfiyyətli əhali yaşayırdı ki, onun 25.307 nəfəri və ya 65,39 %-i türk idi. Sayı 9.897 nəfər olan ermənilər isə vergi mükəlləfiyyətli əhalinin 25,57 %-ni təşkil edirdilər.

**Cədvəl 1**

## BORÇALI NAHİYƏSİNİN VERGİ MÜKƏLLƏFİYYƏTLİ ƏHALİSİ. 1860-c il

| Etnik mənsubiyyəti | Ailə sayı | Kişi | Qadın | Cəmi | Əhali, %-lə |
|---|---|---|---|---|---|
| Tatarlar | 3.413 | 13.665 | 11.642 | 25.307 | 65,39 |
| Ermənilər | 1.232 | 5.431 | 4.466 | 9.897 | 25,57 |
| Yunanlar | 171 | 605 | 525 | 1.130 | 2,92 |
| Gürcülər | 124 | 523 | 423 | 946 | 2,44 |
| Ruslar | 133 | 376 | 417 | 793 | 2,05 |
| Almanlar | 134 | 302 | 329 | 631 | 1,63 |
| ***Cəmi*** | ***5.207*** | ***20.902*** | ***17.802*** | ***38.704*** | ***100*** |

1860-cı il tarixli Borçalı nahiyəsinin kameral təsvirində 322 tatar və 7 erməni imtiyazlı ailəsi qeydə alınmışdır. 322 imtiyazlı tatar ailəsinin 144-ü ağa, 5-i məmur, 73-ü ruhani, 100-ü maaf ailəsi idi. Bu ailələrdə cəmi 1.859 nəfər yaşayırdı. 7 imtiyazlı erməni ailəsi isə erməni məlikləri idi və onlar 18-i kişi, 17-i qadın olmaqla cəmi 35 nəfər idi.

İmtiyazlılarla birlikdə Borçalı nahiyəsinin bütün əhalisi 40.598 nəfər idi ki, onun 27.166 nəfəri tatarlar idi. Beləliklə, tatarlar ümumi əhalinin 66,91 %-ni təşkil edirdi. Sayı 9.932 nəfər olan ermənilər isə 24.46 % idi. Gürcülər, yunanlar, ruslar və almanlar isə birlikdə əhalinin cəmi 8,63 %-ni təşkil edirdilər.

**Cədvəl 2**

## BORÇALI NAHİYƏSİNİN İMTİYAZLI ƏHALİSİ. 1860-cı il

| Etnik mənsubiyyəti | Ailə sayı | Kişi | Qadın | Cəmi |
|---|---|---|---|---|
| Tatarlar | 322 | 1.005 | 854 | 1.859 |
| Ermənilər | 7 | 18 | 17 | 35 |
| ***Cəmi*** | ***329*** | ***1.023*** | ***871*** | ***1.894*** |

**Cədvəl 3**

## BORÇALI NAHİYƏSİNİN ÜMUMİ ƏHALİSİ. 1860-cı il

| Etnik mənsubiyyəti | Ailə sayı | Kişi | Qadın | Cəmi | Ailə, %-lə | Əhali,% -lə |
|---|---|---|---|---|---|---|
| Tatarlar | 3.735 | 14.670 | 12.496 | 27.166 | 67,47 | 66,91 |
| Ermənilər | 1.239 | 5.449 | 4.483 | 9.932 | 22,38 | 24,46 |
| Yunanlar | 171 | 605 | 525 | 1.130 | 3,09 | 2,79 |
| Gürcülər | 124 | 523 | 423 | 946 | 2,24 | 2,33 |
| Ruslar | 133 | 376 | 417 | 793 | 2,40 | 1,95 |
| Almanlar | 134 | 302 | 329 | 631 | 2,42 | 1,56 |
| ***Cəmi*** | ***5.536*** | ***21.925*** | ***18.623*** | ***40.598*** | ***100*** | ***100*** |

Borçalının müsəlman əhalisi hər iki məzhəbdən idi. Kənd ruhanilərinə görə kənd əhalisinin hansı məzhəbə mənsub olduğunu müəyyən etmək mümkündür. Bəzi kəndlərdə həm sünni, həm də şiə ruhanilərinin olması həmin kənddə sünnilərlə şiələrin qarışıq yaşadığını və əhalinin dini tolerantlığını göstərir.

İnsan adlarından bəhs edərkən, rusca yazılan "Али" adını həm Əli, həm də Alı kimi oxumaq mümkündür. Bunların hansının düzgün olacağını həmin şəxslərin yaxın qohumları müəyyən edə bilər. Adın "Rza" olduğunu bildiyimiz halda, sənəddə yazılan və həmin dövrdə "İrza" kimi səsləndirilən adları da o cür yazdıq.

Sazın, sözün vətəni olan Borçalıda peşəsi "aşıq" yazılan yalnız 1 nəfərə rast gəlind. Bu, İmirhəsənli kəndində yaşayan 30 yaşlı Aşıq Şəfi Yusif oğludur. Qeyd etmək yerinə düşərdi ki. Axısqalı Xəstə Hasan kimi tanınan məşhur aşığın ailəsi XVIII əsrin sonunda Borçalı mahalından Axısqa mahalının Lepis kəndinə, qüdrətli söz ustadı Aşıq Şenliyin ailəsi isə Çıldır vilayətinə köçmüşdür. Onlar da Göyçəli Aşıq Ələsgər və Şair Məmmədhüseyn kimi qarapapaqların borçalı tayfasına mənsubdurlar.

Borçalı nahiyəsinin ən yaşlı sakini 100 yaşlı Qızılhacılı kənd sakini Məşədi Məhəmməd Hüseyn oğludur.

1871-ci ildə Borçalı nahiyəsində tatar ağalarından 108 ailənin imtiyazları ləğv edərək vergi mükəlləfiyyətlilərin siyahsına keçirmişlər. Onların arasında Azərbaycan xalqının tarixində iz qoymuş məşhur soyadlar var: Sailovlar *(Ağaməmmədli k.),* Hümbətovlar *(Yuxarı Hamamlı k.),* Sultanovlar *(Baydar k.),* Abbasovlar *(Baraxlı k.),* Acalovlar *(Bolnis-Kəpənəkçi k.),* (H)Asanovlar *(I Kəmərli k.),* Xəlilovlar və Xocalovlar *(Darvaz k.),* Zeynalbəyovlar (*Canəhmədli k.),* İlməzoğluyevlər *(İlməzli k.),* Qasımovlar *(Qasımlı k.),* Eminovlar *(Keşəli k.),* Məmmədağayevlər *(Kıdıklı k.),* Xəlifəsultanovlar *(Qırıxlı k.),* Eminsultanovlar və Eminovlar *(Kosalı k.),* Topçiyevlər *(Qaçağan k.),* Əliyevlər *(Qoşakilsə k.),* Mursaqulovlar *(Böyük Muğanlı k.),* Qocabəyovlar *(Tatar Oramaşeni k.),* Pirverdiyevlər *(Yuxarı Saral k.),* Mirzəbəyovlar və Axundovlar *(Aşağı Saral k.),* Naibovlar *(Saraçlı kən-*

*di),* Minasazovlar və Hüseynovlar *(Sarvan k.),* Süleymanovlar *(Seyidqocalı k.),* Cəfərovlar və Piribəyovlar *(Ulaşlı k.),* Mehdi-bəyovlar-Vəkilovlar *(Çələbli Yadigarov k.),* Kosayevlər və Məmmədovlar *(Şindilər-Kəpənəkçi k.)* kimi məşhur ailələr qeydə aalınmışdır.

Borçalı nahiyəsində Dəmirçihəsənli, Həsənxocalı, Muğanlı, İmirhəsənli. Faxralı, Kosalar, Qırıxlı, Kəpənəkçi, Candar, İmir, İmirhəsənli, Keşəli, Qarakeşəli, Qızılhacılı, Kolagir, Çopalı, Quşçu, Nazarlı, Sadıxlı, Kəmərli, Saral, Saraçlı, Sarvan, Təkəli, Ulaşlı kimi türk tayfaları qeydə alınmışdır.

Tədqiqatçı A.D.Yeritsov Borçalının türk əhalisini tərəkəmə adlandırır və onları mahiyyətcə Qazax qəzasının türk əhalisi ilə eyni sayır.[51]

1877-1878-ci illərdə rus-türk müharibəsiylə əlaqədar olaraq Borçalı və Qazaxdan 3 mindən çox ailə - 25 minə yaxın qarapapaq Qars vilayətinə qaçdı və həmin vilayətin 63 kəndində (2.301 ev), Ardahanın 29 kəndində (690 ev), Qağızmanın 7 kəndində (95 ev) məskunlaşdılar.[52]

1885-ci ildə 96.336 nəfər əhalinin yaşadığı[53] Borçalı qəzasında şəhər yox idi. Böyük Şulaver kəndi qəza mərkəzi idi. Qəzada cəmi 256 kənd vardı, bu kəndlərin 98-də torpaq xəzinəyə məxus idi. Müsəlmanlar bu kəndlərin cəmi 14-də yaşayırdılar, əksəriyyəti isə mülkədar torpaqlarında yaşayırdılar.[54]

---

[51] Ерицов А.Д. Экономический быть государтвенных крестьян Борчалинского уезда Тифлисской губернии. //Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Тифлис, 1887, Т.7, стр. 394.

[52] Məmmədli R., Məmmədli V.Borçalı tarixi demoqrafiya güzgüsündə. Bakı, 2001, s.39.

[53] Ерицов А.Д. Экономический быть государтвенных крестьян Борчалинского уезда... стр.389.

[54] Там же.

Bunlar Arcevan-Sarvan, Bəytərəfçi, Gültəpəli, Darbaz, İmir, Qızılhacılı, Çolank, Gödəkli, Qullar, Daşdıqullar, Kolagir, Quşçu, Mığırlı, Tejis və İran-Turan kəndləri idi.[55]

Tatarlar əkinçiliklə yanaşı heyvandarlıqla da məşğul olurdular və bu baxımdan digər etnoslar onlarla müqayisəyə gəlmirdilər. Digər etnik qruplar taxılı biçdikdən sonra payıza qədər onun döyülməsi kimi ağır işlə məşğul olurdular, tatarlar isə yaz gələn kimi yaylaqlara qalxır, evdə isə ailə üzvlərindən az sayda adam saxlayırdlar. Onlar muzdlu işçilər də cəlb etməklə taxıllarını biçir, dağdakılara və muzdlu işçilərin haqqını ödəməyə çatacaq qədər taxılı döydürüb özləri də yaylağa yollanrdılar. Taxılın əsil döyülməsinə yaylaqdan qayıdandan sonra başlayırdılar. Bu iş payızın sonuna qədər davam edirdi. Bütün qəzada əsas iş iyul və avqust aylarında görüldüyü, tatarlar isə bu vaxt yaylaqda olduğu üçün onları tənbəl sayırdılar. Əslində isə qonşuları kimi kənddə qalmağa onların imkanı da yox idi. Həmin dövrdə əhali malyariyadan əziyyət çəkir, ilan-çayan, ağcaqanad əlindən tərpənmək olmur, digər tərəfdən isə kəndlərdəki bulaqlar və irmaqlar quruyurdu. Ona görə də yaylaqlar onlar üçün təkcə dincəlmək deyil, həm də aranda qalanların qarşılaşdıqları çətinliklərdən xilas yolu idi.

Tatarlar güzəran baxımından o qədər də bolluq içərisində yaşamırdlar. Onların əksəriyyəti həddindən az pay torpağına malik idi, əksəriyyəti isə ağa və mülkədarların torpaqlarının icarədarları idilər. İçərilərində az miqdarda xizanlar da vardı.

Yalnız onların az bir qisminin – Əngirəvan, Məmişli, Xancığazlı kənd sakinlərinin öz torpağı vardı, Bəytərəfçi, Quşçu və Kolagir kəndlərinin, cəmi 14 tatar kəndinin sakinləri isə xəzinə

---

[55] Там же, стр.504-512.

torpaqlarında yaşayırdılar.[56] Onların bütün həyatı təsadüflərdən asılı idi. Əgər mülkədar öz torpağını ondan geri almaq istəsəydi, icarədar hər şeyini, hətta daxmasını atıb başqa mülkədarın yanına qaçmağa və orada özünə binə salmağa, şərait qurmağa məcbur olurdu. Ona görə də mülkədar icarə haqqını qaldıranda da səslərini çıxarda bilmirdilər, çünki yeni yaşayış yerində uyğun şərait qurmaq üçün xeyli xərc və zəhmət çəkməli olacaqdılar. Düzdür, onlar torpağı müqavilə əsasında 3-5 illiyə icarəyə götürürdülər, amma onların bunu bilavasitə etməyə ixtiyarı yox idi. Mülkədarlar torpağı icarə haqqını vaxtında ödəyən vasitəçilərə verir, onlar isə qazanc götürmək üçün daha yüksək qiymətə kəndlilərə verirdilər. İcarə müqaviləsi yenilənəndə mülkədarlar icarə haqqını qaldırmaq fürsətini də əldən vermirdilər. Ona görə də müsəlmanların vəziyyəti çıxılmaz idi. Onlar məhsulun 1/4 hissəsi ilə yanaşı mülkədara hər desyatin üçün gümüş pulla 1-3 rubl ödəyir, ona odun gətirmək, mülkədarın torpağını şumlamaq, taxılını biçmək və s. kimi xeyli mükəlləfiyyətlər də ödəyirdilər. Bütün bunları da pula çevirəndə belə çıxırdı ki, sakinlər ancaq mülkədara işləyir.

Tatarların mal-qarası çox olsa da, ondan gələn gəlirin də çox hissəsi əllərindən çıxırdı. Bu mühitdə qolçomaqlıq çox inkişaf etdiyinə görə az adam tapılardı ki, çox yüksək faizlə borcu olmasın, gecikməyə görə cərimə ödəməsin və ya öz məhsulunun çox hissəsini natural şəkildə borclu olduğu adama ödəməsin.

Tatarlar xeyli taxıl əkib çoxlu mal-heyvan bəsləsələr də bütün bunlara görə onların iqtisadi vəziyyəti ağır idi və nadir istisnalarla ehtiyac içərisində yaşayırdılar. Bu isə bir çox hallarda onları qanunsuz əməllər törətməyə sövq edirdi. Burada böyük

---

[56] Аргутинский-Долгоруков А.М. Борчалинский уездъ… стр. 51.

yolda soyğunçuluq edən Kərim[57] və onun yoldaşları haqqında dolaşan rəvatyətlərə heyranlıqla qulaq asmayan az tatar tapılar.[58]

Borçalı qəzasndakı *alman* əhali Vürtemburq krallığından gətirilən kolonistlər idi. Onları 1817-ci ildə Cənubi Qafqazda rus qoşunlarının Ali Baş komandanı A.Yermolov dəvət etmişdi ki, torpağı daha yaxşı becərməyi yerli əhaliyə öyrətsinlər. Rusiya hökumətini  xeyli xərc çəkib gətirdiyi həmin şəxslər 1818-ci ilin sonlarında Yekaterinenfeld adlı kənd saldılar. Onların bir hissəsi isə 1857-ci ildə Tiflis qəzasında Aleksandrsqilf kəndini saldılar. Yekaterinenfeld kolonistləri ailə başına 28 desyatin torpaq sahəsi almış və 1832-ci ilə qədər bütün vergi və mükəlləfiyyətlərdən azad edilmişdilər. Rusiya hökuməti o ümidlə xeyli xərc çəkib onları burada yerləşdirmişdi ki, almanlar ətrafdakı əhaliyə də mədəni və iqtisadi cəhətdən yüksəlməkdə kömək edəcək. Arqutinski-Dolqorukovun yazdığına görə bu ümidlər doğrulmadı.[59] Amma yerli əhali onlardan üzüm əkib becərməyi, şərab düzəltməyi yaxşı öyrənmişdi.

Alman kəndi abadlığı ilə digər kəndlərdən xeyli fərqlənirdi. Burada geniş küçələr salınmış, səki düzəldilmiş və yol kənarlarına ağaclar əkilmişdi. Hər tərəf səliqə-sahmanı ilə fərlənirdi. Yerli əhali çirkli və natəmiz qazmalarda yaşadığı halda, almanlar 1 və ya 2 mərtəbəli, 2-4 otaqlı evlərdə yaşayır, yaxşı nebelləri, saat, lampa işlədirdilər. Ətraf kəndlərdəki ən zəngin adamlarda da bu cür səliqə-səhman yox idi. Onlar təmiz paltar geyir, hər gün zəngin süfrə açırdılar. Onların başlıca məşğuliyyəti üzümçülük, qismən də əkinçilik idi. Aleksandrsqilf almanları isə yal-

---

[57] Çox güman ki, söhbət Qaçaq Kərəmdən gedir, müəllif onun adını səhvən Kərim yazıb.

[58] Аргутинский-Долгоруков А.М. Борчалинский уездь… стр.52.

[59] Там же, стр.44.

nız heyvandarlıqla məşğul olurdular. Hamısı savadlı olan Yekaterinenfeld almanları qara işlərlə məşğul olmağa o qədər də meyilli deyildilər və üzüm bağlarında da çox vaxt kənar kəndlərdən tutduqları fəhlələrdən istifadə edirdilər.

Borçalı qəzasında ən ağır vəziyyətdə yaşayanlar *gürcülər* idi. İstisnasız olaraq əkinçiliklə məşğul olan gürcülərin torpaqları çox az olduğundan çox ağır vəziyyətdə yaşayırdılar. Saylarına görə də axırıncı yerdə dururdular. Yazı-pozu bilənlər də son dərəcə az idi.

Qəzadakı *yunanları* 2 qrupa bölmək olardı: Alaverdi icmasında yaşayanlar və digərləri. Birincilər Trabzon yaxınlığındakı Gümüşxana gümüş və qurğuşun zavodundan gələnlər idi. Mədənçiliklə məşğul olan bu əhalini bölgənin faydalı qazıntılarını - gümüşü və misi istismar etmək üçün burada yerləşdirmişdilər. Bu işi yaxşı bilən yunanlar fəal şəkildə mədənçiliklə məşğul olur və yaxşı qazanırdılar. Yunanlar buradakı metallurgiya zavodunu bir faransız kampaniyasına ili 9 min rubla icarəyə vermiş, həm də orada işləyərək maaş alırdılar. Onlar yalnız özlərinə lazım olan miqdarda əkinçiliklə də məşğul olurdular. Mədənçilik işinə həddən artıq həvəskar olduqlarına görə yeni-yeni filiz yataqları da kəşf edirdilər. Onların məişətində səliqə-sahman və təmizlik hiss edilirdi.

1830-cu illərdə Ərzurum yaxınlığından gələn qalan yununlar əsas etibarilə əkinçiliklə məşğul olsalar da, mədənçiliyə maraq göstərənlər də var idi. Aralarında çoxlu bənnalar, daşyonanar vardı, ən yaxşı daş doğrayanlar da onlar sayılırdılar. Əvvəlki məskənlərində müsəlmanlar arasında yaşadıqlarına görə bu amil onların məişətində güclü iz buraxmışdı. Onların əksəriyyti tatar dilində danışırdı. Geyimləri, məişəti, adət-ənənələri də tatarlarda olduğu kimi idi. Yunan qadınlarında azadlıq rus və erməni qadınlarındakından da az

idi. Ərə gedən yunan qızları üzünü iki il örpəklə örtməli və kişilərə göstərməməli idilər. Bu müddət ərzində onlar öz əri və uşaqlarından başqa heç kimlə, hətta ailənin digər üzvləri ilə də danışa bilməzdilər. Bir başqasına sözü ya uşaqların vasitəsilə deyə bilər, ya da əl-qol işarələri ilə bşa salırdılar.

Yunanlar əməksevər, təhsil almağa və yunan dilini öyrənməyə meylli idilər.

Borçalı qəzasının *ermənilər i* yerləşmək baxımından müxtəlif təbəqələrə bölünürdülər. Debed çayı hövzəsində yaşayanlar çoxdan burada məskunlaşmşdılar. Lori düzənliyində, xüsusilə Cəlaloğlu kəndi ətrafındakılar XIX əsrin əvvəllərində İrəvan xanlığının Pəmbək, Abaran və başqa bölgələrindən gəlmişdilər. Maşaver və Xram çaylarının başqa qollarının hövzəsində yaşayan Bolnisi ermənilərini və başqalarını isə sonuncu gürcü çarları İrakli və Georgi Qarabağdan gətirib burada məskunlaşdırmışdılar. Qəzadakı xəzinəyə məxsus 98 kəndin yarıdan çoxunda məskunlaşan bu əhali bölgənin ən sağlam təbiətə malik olan ərazisində yaşayırdılar. Qazax və Aleksandropol qəzalarından da buraya xeyli erməni gəlmişdi.

Bölgədəki ermənilər də iki qrupa bölünürdü: katoliklər və qriqoryan ermənilər. Əksəriyyəti qriqoryan məzhəbinə mənsub idi. Ermənilərin əksəriyyəti xəzinə torpaqlarında yaşayan dövlət kəndliləri idi, bir qisminin isə öz torpaqları var idi. Dolanışıqları yaxşı olsa da, ermənilər səliqəsiz yeraltı qazmalarda yaşayırdılar. Əksəriyyəti böyük kəndlərdə yaşayan ermənilər əsasən əkinçiliklə, qismən də donuzçuluqla məşğul olurdular. Cənubi Qafqazın bir çox şəhərləri ilə əlaqəsi olan Şulaver və Cəlaloğlu erməniləri ticarətlə də məşğul olurdular. Əkinçilik və heyvandarlıqdan başqa, ermənilər üzümçülüklə də məşğul olurdular.Amma Şulaver şərabı keyfiyyətinə görə Kaxet şərabından geri qalır-

dı. Erməni qadınları tatar, gürcü və yunan qadınlarından daha çox azadlıqlara malik idilər. Ərə gedəndən sonra örpək və kişilərlə danışmamaq qadağası da yox idi.

Borçalı qəzasnda yaşayan ruslar pravoslav, molokan və duxobar olmaqla 3 qrupa bölünürdülər. Rus kəndləri geniş və uzun küçələrdən ibarət idi, səliqə-sahmanı ilə seçilirdi. Kiçik istisnalarla, ruslar evlərini taxtadan tikir, içəriini və çölünü gillə suvayırdılar.

*Pravoslav ruslar* yaxşı əkinçi idilər, becərdikləri bostan məhsullarını Tiflis və Aleksandropol bazarlarında satırdılar. Yaşadıqları kəndlərdə şərab dükanları vardı. Pravoslav ruslarda, xüsusilə qadınlar arasında savadlılıq çox aşağı idi. Tarla işlərini kişilərlə bərabər yerinə yetirən pravoslav qadınları evdə demək olar ki, tam hüquqsuz vəziyyətdə idilər və kişilərin qeyri-məhdud hakimiyyətinə tabe idilər.

*Molokanlar* həyat səviyyəsinə və mədəni cəhətdən onlardan xeyli yüksək idi. Molokanları bütün Qafqazda çarvadar – yük daşıyanlar kimi tanıyırdılar. Onları Vladiqafqaz, İrəvan, Aleksandropol, Qars və Tiflis şəhərlərində yüklü və ağır furqonlarla görmək olsrdı. Onlar qonşuluqdakı mülkədarlardan satın aldıqları öz torpaqlarında yaşayırdılar. Şəhərlərlə əlaqədə olan molokanlar yaşadıqları kəndlərə oradan daha üstün mədəniyyət də gətirirdilər. Molokanlar əkinçilikdə əsasən muzdlu işçilərdən istifadə edirdilər. Onlar dindarlıqları və ticarətdə düzgünlükləri ilə seçilirdilər.

Molokanlar arıçılıqla məşğul olur, hətta arıların bal çəkməsi üçün bitkilər əkirdilər. Onlardan bəziləri arıçılıqla bağlı jurnallara abunə yazılmışdılar.

Molokanlarla müqayisədə *duxoborlar* xeyli kasıb və mədəni cəhətdən daha aşağı vəziyyətdə yaşayırdılar. Molokanlar

kimi duxoborlar da öz iradələri ilə Qafqaza gəlməmiş, dini görüşləri bəhanə edilərək buralara sürgün edilmişdilər.

Molokanların əksinə olaraq duxoborlar yaxşı əkinçilər idilər. Zəhmətkeş əhali olan duxoborlar ticarətlə məşğul olmur, əkinçilik, heyvandarlıq, az bir qismi isə çarvadarlıqla məşğul olurdular. Duxoborlar arasında içki içənə və tütün çəkənlərə rast gəlinmirdi.

### *4.Vergilər və mükəlləfiyyətlər*

Rus işğalından əvvəl də Gürcüstanın əhalisi 4 zümrəyə bölünürdü: knyazlar, zadəganlar, ruhanilər və kəndlilər. Kəndlilər vergi mükəlləfiyyətli idi və özü də bir neçə qrupa bölünürdü: dövlət kəndliləri, mülkədar kəndliləri, kilsə kəndliləri və azad kəndlilər.

"Tarxan" adlanan azad kəndlilər (maaflar) heç bir vergi ödəmir və mükəlləfiyyət daşımırdılar. Tarxanlar hərbi xidməti olan şəxslər idi. Beləliklə bütün vergi yükü, dövlət, mülkədar və kilsə kəndlilərinin üzərinə düşürdü.

Vergilər iki formada – pul və natural şəkildə, yəni əldə edilən məhsulun müəyyən hissəsi şəklində alınırdı.

İşğaldan əvvəl Gürcüstanda aşağıdakı vergilər mövcud idi:

Dövlət, mülkədar və kilsə kəndlilərindən ailəbaşına alınan 3 kod (1 kod 2 puda bərabər idi) taxıl vergisi ***sursat*** adlanırdı. Sursatın 2/3 hissəsi buğda, 1/3 hissəsi isə arpa ilə ödənilirdi. Bu vergi Gürcüstanın müsəlman əhalisindən alınmırdı.

Yalnız dövlət kəndlilərindən natural şəkildə alınan vergi ***qalli*** adlanırdı. Müxtəlif yerlərdə onun miqdarı məhsulun 1/10 hissəsindən 1/5 hissəsinə qədər dəyişirdi.

Adambaşına gümüş pulla 1 rubl 4,75 qəpiyə bərabər olan və pulla alınan vergi ***maxta*** adlanırdı. Şəhər və kənd əhalisi

üçün bu verginin miqdarı eyni idi. Yalnız Borçalıda köhnə ənənələrə uyğun olaraq bu məbləğ fərqli olurdu.

***Taxıl maxtası*** yalnız Gürcüstanın müsəlman əhalisindən alınırdı. Onlar həm pulla, həm də natural şəkildə maxta ödəyirdilər.

***Mali*** adlanan adambaşına vergi yalnız şəhər əhalisindən alınırdı. Onun miqdarı evlilər üçün 1 rubl 20 qəpik, subaylar üçünsə 60 qəpik idi. Bu vergi növü ehtimal edilir ki, əvvəlki dövrlərdə ərazini fəth edən hökmdarın hərbi xərclərini ödəmək üçün xərac (kontribusiya) rolunu oynamışdır.

***Qulluxi*** çaxır vergisi idi.

Zəngin kəndlilərdən sursatla yanaşı alınan vergi ***kadispuri*** adlanırdı.

Bundan başqa ruslar və ləzgilər üçün alınan vergilər vardı ki, onlar ***saruso və salehi*** adlanrdl.

Beləliklə, vergilərin çoxunu dövlət kəndliləri ödəyirdilər. Mülkədar kəndliləri daha az ödəyirdilər, kilsə kəndliləri isə demək olar ki, xəzinə yığımlarından azad idilər.

Rusiya işğalından sonra vergi praktikasını sadələşdirmək və maksimum vergi toplamaq üçün bir sıra islahatlar həyata keçirildikdən sonra XIX əsrin sonlarında Cənubi Qafqazda vahid vergitutma sistemi yaradılmşdı. Vergilər ***dövlət və ictimai vergilərə*** ayrılırdı. Ev vergisi, torpaq vergisi və zemski vergilər dövlət vergisi adlanırdı. Zemski vergilərin özü də dövlət və quberniya vergilərinə bölünürdü. İkinci qrup vergilər ictimai vergilər idi və o yığıldığ kəndin öz ehtiyaclarına xərclənirdi. Birinci qpup vergilər əsas və birinci dərəcəli, ikinci qrup vergilər isə ikinci dərəcəli vergilər sayılırdı.

Quberniya və qəzalarda vergilərin sayı və miqdarı müxtəlif idi. 6 növ verginin mövcud olduğu Borcalı qəzasında evbaşı-

na verginin miqdarı gümüş pulla 3 rubldan 8 rubl 50 qəpiyə qədər idi.[60] 98 kəndində dövlət kəndlisi yaşayan Borçalı qəzasındakı 10 kənddə evbaşına vergi 2-3, 14 kənddə 3-4, 68 kənddə 4-5, 5 kənddə 7-8, 1 kənddə isə 8,5 rubl idi.[61] 1886-cı ildə Borçalı qəzasının dövlət kəndlilərindən 20.624 rubl, Tiflis quberniyasının bütün dövlət kəndlilərindən isə 183.909 evbaşına vergi toplanmışdı.[62]

Evbaşına vergilər əvvəllər biri pulla, digəri isə natural şəkildə ödənilən maxta və sursat vergilərinin cəmindən yaranmışdı. Natural şəkildə ödənilən məhsulun qiyməti hesablanır və pulla ödənilən məbləğlə cəmlənirdi. Beləliklə ailəbaşına verginin miqdarı müəyyənləşdirildikdən sonra kameral təsvirdə qeydə alınan ailələrə tətbiq edilirdi.

Zemski vergilər iki yerə ayrılırdı: dövlət və quberniya vergiləri. Adlarından da göründüyü kimi bu vergilər təyinatına görə fərqlənirdi. Tiflis quberniyasında zemski vergilərin məbləği gümüş pulla 30 qəpikdən 7 rubl 98 qəpiyə qədər dəyişirdi. Borçalı qəzasında bu verginin miqdarı 6,2 - 7,3 rubl arasında idi. Qonşu Qazax qəzasında bu rəqəm 7,2 rubl idi.

Borçalı qəzası dövlət kəndlilərinin ödədiyi zemski vergilərin ümumi miqdarı 29.551,4 rubl idi.

Borçalı qəzasında hər desyatin əraziyə görə alınan zemski vergi 47 qəpik, mədəni bitkilər əkilən torpaqların hər desyatininə düşən zemski vergi isə 72 qəpik idi.[63]

---

[60] Бахтадзе И.Л. Податное облажение государственных крестьян Закавказского края.//Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Т.1, Тифлис, 1887, стр.139.

[61] Там же, стр.141

[62] Там же, стр.143.

[63] Bax:. Бахтадзе И.Л. Податное облажение государственных крестьян Закавказского края…

İctimai vergilər kənd icmasının ehtiyaclarını ödəmək üçün toplanan vergilər idi və bu xərclər hökumətin nəzarəti altında, “Kəndlərin vəziyyəti haqqında Əsasnamə” ilə tənzimlənirdi. Buraya aşağıdakılar daxil idi:

1.İctimai idarəetmə xərcləri;

2.Adamların çiçək xəstəliyinə qarşı aşılanması, başqa yoluxucu xəstəliklərin meydana çıxdığı vaxt kənd həkiminin tələb etiyi digər tədbirlərin həyata keçirilməsi;

3.Kənd mağazalarının qanuna müvafiq şəkildə təşkili və saxlanması;

4.İcmaya məxsus olan yolların, arxların, ayırıcı sərhəd nişanlarınn saz vəziyyətdə saxlanması;

5.Kəndlərdə qarovulların saxlanması;

6.Qohumları olmayan, qocalığa və ya şikəstliyə görə işləyə bilməyən, ehtiyac içərisində yaşayan şəxslərə kömək edilməsi;

7.Yanğınlar, sel, uçqunlar, digər təbii fəlakətlər, çəyirtkə və ya yırtıcı heyvanların zərər vurması zamanı tədbir görülməsi;

Yeni arxların, kilsə və ya məscidlərin, məktəblərin tikilməsi, mirab və cuvarların, kənd müəllimlərinin, bərbərlərin, çobanların saxlanması, məmurların qonaqlanması üçün vəsait toplanması isə könüllülük əsasında həyata keçirilirdi.

Borçalı qəzasında yaşayan kəndlilərin 1897-ci ildə ödədiyi bütün vergilər 130.087 rubl təşkil edirdi ki, bu da ailəbaşına 11 rubl 40 qəpik, kişi başına isə 2 rubl 72 qəpik edirdi.. Maxtəlif sahələr üzrə verginin məbləği belə bölünmüşdü: suvarılan ərazilərdən 30.904 rubl; zemski vergilər: 57.321 rubl; müsəlmanlardan hərbi qulluqdan azad edilməyə görə alınan vergi 6.433 rubl; ictimai xərclərə görə 35.439 rubl. Beləliklə, dövlət vergiləri ümumi vergilərin 73 %-ni təşkil edirdi. Ödənilən vergilər fərqlənsə də, kəndlilər əslində nə qədər evbaşına, yorpaq vergisi və ya ictimai

vergilər ödədiklərini bilmirdilər. Onlara yalnız ödədikləri verginin ümumi miqdarı məlum idi. İctimai vergilərdən 3 dəfə artıq olan dövlət vergisi evbaşına 8 rubl 3 qəpik idi.[64]

Hərbi mükəlləfiyyətdən azad olunmaq üçün hər müsəlman ailəsi ildə gümüş pulla 1 rubl 35 qəpik vergi ödəyirdi.[65]

Borçalı qəzasında ictimai vergilərdən kətxudalara maaş kimi cəmi 4.625 rubl ödənilirdi. Amma kətxudaların bir çoxu maaş almırdılar, bunun əvəzində bütün vergi və mükəlləfiyyətlərdən azad edilmişdilər ki, bu da ildə təxminən gümüş pulla 20 rubl demək idi. Maaş almayan və vəzifə səlahityətlərini həyata keçirən kətxudaların öz təsərrüfatlarına kifayət qədər vaxt ayıtra bilmədiklərinə görə əlavə qazanc əldə etmək üçün dolayı yollara əl atırdılar. Bu iş qazanclı vəzifə olduğundan, çox adam kətxuda olmağa can atırdı, amma ən zəngin və diribaş şəxslər buna nail olurdular. Qəzada ən yüksək maaşı Faxralı, Arıxlı və Qızlhacılı koxaları alırdı. Onların illik maaşı gümüş pulla 840 rubl idi.[66]

Qəzadakı bütün *desyatniklərə* toplanmış ictimai vergilərdən 2.104 rubl maaş ödənilirdi. Desyatnik kəndlərdəki ən aşağı polis vəzifəsi idi. Onun bütün ömrü qalmaqalla keçirdi. Adamları kənd yığıncaqlarına toplamaq, vergisini verə bilməyənlərin evindən xalçasını və ya yorğanını gətirmək onun əsas məşğuliyyət növü idi. Adətən, ehtiyac içərisində yaşayan, yeməyə bir şeyi olmayan, başnı soxmağa bir deşik axtaran qocalar desyatnikliyə razılıq verirdilər.

Çaparlara 1.296 rubl ödənilirdi. Bütün icmalarda yox, yalnız bəzi kəndlərdə çaparlar var idi.

---

64 Аргутинский-Долгоруков А.М. Борчалинский уездь… стр.175.

65 Там же, стр. 178.

66 Eyni əmtəələrin o vaxtkı və indiki qiymətlərini müqayisə etməklə, hesablamaq olur ki, həmin dövrdə 1 gümüş rus rublunun dəyəri indiki 150 Azərbaycan manatına ekvivalentdir.

Məktəblərin saxlanmasına 5.329 rubl xərclənirdi.

11 xristian kəndindəki məktəblərdə, 629 oğlan, 403 qız olmaqla, 1.032 şagirdə təhsil alırdı.

Müsəlman kəndlərinin heç birində məktəb yox idi. Müsəlmanlar əvvəlki kimi molla yanına gedib yazı-pozu öyrənirdilər.

Bu fakt Rusiya dövlətinin müsəlmanlara qarşı yürütdüyü ayrı-seçkilik siyasətinin əyani nümunəsidir.

Erməni əhalidən toplanan ictimai vergilərdən Axpat və Eçmiadzin monastrlarına da pul ödənilirdi. Bu fakt ermənilərin dövlətinin olmadığı vaxtlarda Eçmiadzin kilsəsinin öz büdcəsinə malik olan hökumət rolunu oynadığını göstərir.

Erməni ruhanilərindən fərqli olaraq, müsəlman mollaları maaş almırdılar.[67]

### ***5.Kənd təsərrüfatı və iqtisadiyyat***

Borçalı əhalisinin əsas məşğuliyyəti və gəlir mənbəyi əkinçilik və heyvandarlıq idi. Əkinçilikdə əsas yeri taxılçılıq tuturdu.

Əkin və bağ yerlərinin əsas sahə vahidi ***əkingünü*** (1 günlük əkin sahəsi) adlanırdı.

Borçalı çökəyindəki suvarılan torpaqlarda ***1 əkingünü*** ərazi 1/2 ***desyatinə*** bərabər idi. Ermənilərin yaşadığı Cəlaloğlu kəndində 1 əkingünü ərazi 5/6 desyatinə bərabər idi. Lori və Trialet pristavlıqlarında isə 1,5 əkingünü sahə 1 desyatinə bərabər qəbul edilmişdi. Qəzanın hər yerində sahəni oraya səpilən toxumun miqdarına görə götürürdülər. Borçalı çökəkliyində, tatarların yaşadığı ərazidə 9 pud taxılın səpildiyi ərazi 1 desyatinə bərabər götürülürdü. 9 pud 15 ***çanağa*** (hər çanaq 24 ***funta (0,309 kq)***

[67] Аргутинский-Долгоруков А.М. Борчалинский уездъ… стр.184.

bərabər idi. Buradakı ən böyük ərazi 30 çanağın və ya 18 pud taxılın səpildiyi ***tağar*** idi və o 2 ***dövlət desyatininə*** bərabər idi. Lori və Tsalka pristavlıqlarında çanağın yerinə 1 pud 10 funt taxıla bərabər olan ***kod*** işlədilirdi. 20 puda və ya 16 koda bərabər olan çəki və ya ərazi vahidi isə ***somar*** adlanırdı. 5 somar 1 ***urupa*** bərabər idi. Beləliklə, 1 urup 100 puda, 6 kod (7,5 pud) isə 1 əkingünü əraziyə bərabər idi.

1 desyatin ərazi 1,09 ha-ya bərabər idi.

Zaqafqaziya dəmir yolunun işə düşməsinə qədər Borçalı taxılı Tiflis bazarına Yelizavetpol və Bakı quberniyalarında yetişən taxıldan xeyli əvvəl gətirildiyinə görə əslində ona qoyulan qiymət payızda Tiflis meydanları və bazarları Aleksandropol və Şürəyöl taxılı ilə aşıb-daşanda da öz qiymətini saxlayırdı. Tiflisdə "tərəkəmə" sortu kimi tanınan bu taxılın pudu başqa yerlərdən gətiriləndən həmişə 10-20 qəpik daha baha satılırdı (1 pud buğdanın qiyməti 80 qəpik idi). Başqa ərazilərdən gətirilən taxıldan fərqli olaraq Bolnisi və ya Sadaxlı taxılı zərif qabığı, ağ və aromatlı unu ilə fərqlənidi. Xalq arasında belə bir zərb-məsəl yaranmışdı ki, Borçalı düzənliyində yetişən taxıl çar süfrəsinə də layiqdir, Lori taxılı ancaq ac çobanların işinə yarayır, Tsalka taxılından bişirilən çörəklə isə düşmənlərinin başını yara və itləri zəhərləyə bilərsən. Bu ifadələrdə nə qədər şişirtməyə yol verilsə də, hər 3 ərazidə yetişdirilən taxılın keyfiyyətinin bir-birindən nə qədər fərqləndiyini göstərir. Ona görə də Lori və Tsalkanın imkanlı ailələri də bayram günlərində bişirmək üçün müəyyən miqdar Borçalı taxılını tədarük edirdilər. Düzənlik və suvarılan torpaqlarda əkilən taxılın boyu süvarinin sinəsinə çatırdı. Amma həmin toxumu Tsalka torpağında əkəndə ensiz və balacaboylu taxıl əmələ gəlirdi. Borçalıda dolu sünbüllü, kəhrəba kimi taxıl sortunu Tsalkada əkəndə gövdə üzərində yalnız kiçik bir yaşı-

lımtıl-sarımtıl sünbül əmələ gəlirdi. Torpağın və iqlimin nə qədər böyük təsirə malik olduğu açıq-aşkar görünürdü.

Borçalıda buğda ilə yanaşı arpa, darı, qarabaşaq, vələmir, bulğur və başqa bitkilər əkilirdi. Borçalı buğdası ağ rəngi ilə seçilirdi. Burada həm yazlıq, həm də payızlıq buğda əkilirdi və Borçalı çökəyindəki əkinlər mütləq suvarılırdı.

Borçalı çökəkliyində az miqdarda çəltik və heyvandarlıqda yem üçün qarğıdalı da əkilirdi. Burada texniki bitkilərdən tütün və pambıq da əkilirdi. Əsasən mülkədar torpaqlarında əkilən pambığın qiyməti düşdükdə əkin sahələri də azalırdı. Burada kətan, küncüt, çətənə və başqa bitkilər də becərilirdi.

Bol suyu, münbit torpağı və müxtəlif qiymətli bitkilər əkilməsi baxımından Borçalı pristavlığı Borçalı qəzasının ən yaxşı ərazisi sayılırdı. Bu ərazidə indiqo, şəkər qamışı və çay plantasiyalarının salınması barədə də məlumat yayılmışdı. Cənubi Qafqazda elə bir sərgi yox idi ki, orada Borçalı məhsullarına hansısa mükafat verilməsin. Borçalı pambığı Peterburqda keçirilən sərgidə də mükafat qazanmışdı. Tiflis sərgilərində 1861-ci ildə Borçalı yerli taxıla, arpaya və yumşaq buğdaya (bulğur), şəraba və xalçaya, 1862-ci ildə ipək, bostan bitkiləri və taxıla, 1863-cü ildə buğda, buğda unu, yarma, arpa, darı, noxud, meyvə arağı, yundan toxunan əmtəələrə və s. görə mükafatlar almışdılar. Buranın məhsulları Moskva, hətta London sərgilərində də mükafata layiq görülmüşdü.

Bu cür zənginlik işgüzar adamların hərəkətə keçməsinə stimul yaradır və bölgə iqtisadiyyatının çiçəklənməsinə imkan verirdi. Məsələn 1885-ci ildə burada artıq Avropadan gətirilmiş 82 kotan, 3 taxılbiçən, 3 taxıldöyən maşın vardı.[68]

[68]Ерицов А.Д. Экономический быть государтвенных крестьян Борчалинского уезда ... стр.481.

Təbiətinə və relyefinə görə Borçalı qəzasının 2/3 hissəsi heyvandarlıq üçün olduqca əlverişli idi. 1885-ci ildə 96.336 nəfərin yaşadğı Borçalı qəzasında 134.073 iribuynuzlu, 413.454 baş xırdabuynuzlu heyvan, 12.752 at, 2.936 qatır və ulaq vardı.[69]

Burada yerli şəraitə ən dözümlü olan "tərəkəmə" cinsindən olan iri və kiçik buynuzlu heyvanlar bəsləyirdilər. Borçalı qəzasında Rus sakinlərin Rusiyadan gətirdikləri daha hündürboylu və daha güclü heyvanlar da var idi. Düzənlik yerlərdə yük daşımaq üçün həmin jeyvanlar əvəzedilməz idilər. Loridəki düzənlik yerlərdə, ruslarla qonşuluqda yaşayan ermənilərdə də yük daşımaq üçün kəlləri bu heyvanlarla əvəz edirdilər. Lakin dağlıq yerlərdə bu heyvanlardan istifadə etmək əlverişli deyildi, onlar bir çox hallarda tələf olurdular.

Çoxlu yaylaqları və qışlaqları olan Borçalı tatarları üçün kişik buynuzlu heyvan da yaxşı gəlir mənbəyi idi.

XIX əsrin sonunda Borçalı qəzasında və ona daxil olan Borçalı pristavlığında ticaarət kifayət qədər inkişaf etmişdi. Bunu qəzadan ixrac edilən və oraya idxan edilən məhsulların sayından və miqdarından da görmək olar.

Borçalı qəzasından ildə 1,5 mln pud buğda, 200 min pud arpa, 60 min pud kartof, 50 min pud vələmir, 305 min pud üzüm və şərab, 200 pud tütün, 20 min pud kələm, 4.680 pud İsveçrə texnologiyası ilə istehsal olunan, 10 min pud yerli pendir, 70 min pud yun, 600 pud bal, 80 min pud mis, 50 min pud dəmir, 10 min pud əhəngdaşı, 15 min baş iribuynuzlu, 30 min baş xırda buynuzlu heyvan və s. ***ixrac,*** 42 min pud duz, 150 min pud kerosin və mazut, 115 min pud dəmir və dəmir qırıntıları, 10 min

[69] Там же.

pud quru meyvə və s. ***idxal*** edilmişdi. İdxal-ixrac əməliyyatlarının ümumi həcmi 3.725.435 pud olmuşdu.[70]

* * *

Oxuculara təqdim etdiyimiz "Borçalı nahiyəsinin kameral təsviri. 1860-cı il" kitabının onlarda maraq doğuracağına ümid edərək onun elmi redaktoru akademik Şahin Mustafayevə, elmi məsləhətçisi akademik Nizami Cəfərova, Milli Azərbaycan Tarixi Muzeyinin Baş direktoru akademik Nailə xanım Vəlixanlıya, filologiya üzrə fəlsəfə doktoru F.Süleymanoğluna, M.Maşova, kitabın işıq üzü gğrməsində əməyi olan digər şəxslərə təşəkkürümü bildirirəm.

[70] Аргутинский-Долгоруков А.М. Борчалинский уездъ… стр.184-185.

# BORÇALI NAHİYƏSİNİN KAMERAL TƏSVİRİ.

## 1860-cı il

## I HİSSƏ

**ABDALLI və ya XAÇELİ kəndi** (v.1-6)

Müsəlman tatarlar.

**1.Mülkədar torpaqlarında yaşayan dövlət kəndliləri:**

**1.5. Qasım Əlimərdan oğlu** 40 y; oğlanları: Əli 6 y; Süleyman 3 y; qardaşları: Daşdəmir 30 y; Mustafa 20 y (5/4)

**2.1. Əziz Hümbət oğlu** 40 y; oğlu Yolçu 6 y; qardaşları: Əsəd 30 y; İsmayıl 25 y; Nurməmməd 20 y; Qəhraman 10 y (6/5).

**3. Hüseyn Məmmədəli oğlu** 15 y (1/2).

**4.7. Pinat (?) Cəfər oğlu** 30 y; qardaşları: Nəsib 27 y; İsa 25 y; əmisi oğlu İbrahim 10 y (4/5).

**5.3. Mahmud Yusif oğlu** 50 y; oğlanları: Əhməd 15 y; Qara 7 y; Nəzər 5 y; əmisi oğlu Hüseyn 25 y (5/1).

**6.4. Əli[71] Qurban oğlu** 35 y; qardaşları: Süleyman 25 y; Həmzə 20 y; əmisi oğlanları: Osman 25 y; Qurban 15 y (5/5).

**7. Bayram Yaqub oğlu** 20 y; qardaşları: Qəhrəman 15 y; Yusif 10 y; əmisi oğlu Rəsul 15 y (4/2).

**8.1. Məmməd Boruqçu oğlu** 40 y; oğlu Nəbi 10 y; qardaşları: Qurban 30 y; Avim 25 y (4/6).

**9.1. Süleyman Osman oğlu** 25 y; oğlu **M)mməd** 12 y (2/1).

**2.Mülkədar kəndliləri.**

---

[71] Rus dilində Али yazılan bu adı adı həm Əli, həm də bölgənin xüsusiyyətlərinə uyğun olaraq Alı kimi oxumaq olar.

**Knyaz Aleksandr Orbelianinin təhkimli kəndliləri:**

**1.4. Məmmədqulu Həsən oğlu** 35 y (1/1).

**2.1. Əli Mustafa oğlu** 40 y; qardaşı Qasım 30 y; qardaşı oğlu İbrahim Süleyman oğlu 20 y (3/-).

***Abdallı kəndində cəmi 12 ailə, 43 kişi və 36 qadın yaşayır, hamısı tatardır.***

***Yoxlamanı həyata keçirdi və kameral təsviri tərtib etdi kollegiya müşaviri Z.İllyaşeviç.***

**AQVA kəndi** (v.9-15)

***Xəzinə torpaqlarında yaşayan dövlət kəndliləri.***

***Kənddə 13 erməni ailəsi, 70 kişi və 53 qadın yaşayır.***

**AĞAMƏMMƏDLİ kəndi** (v.19-33)

Müsəlman tatarlar.

Xəzinə torpaqlarında yaşayan dövlət kəndliləri

**1.9. Məmmədhəsən Mirzə oğlu** 60 y; oğlanları: Musa 30 y; İdris 22 y; Musanın oğlu Abbasqulu 3 y (4/3).

**2. Daşdəmir Oruc oğlu** 40 y; oğlu Məmməd 2 y (2/4).

**3.12. Əli Zeynal oğlu** 35 y; qardaşı oğlu Məmməd 20 y (2/3).

**4.12. Məmməd Abdulla oğlu** 28 y; qardaşı Əbdürrəhman 7 y (2/1).

**5.1. Hüseyn Babakişi oğlu** 70 y; oğlu Məmmədhəsən 25 y; qardaşı oğlanları: Əlisgəndər 14 y; Məmməd 7 y; Əli(Alı) 5 y (5/5).

**6.21. Emin Qorçu oğlu** 40 y; qardaşı oğlu Əhməd 25 y (2/2).

**7.21. Musa Mə(hə)mməd oğlu** 30 y; qardaşı İsmayıl 12 y (2/1).

**8.17. Oruc Nəsib oğlu** 60 y; oğlanları: Əsgər 20 y; Mustafa 14 y (3/4).

**9. Kişi Mürşüd oğlu** 8 y; qardaşları: Mmmədqulu 6 y; Babakişi 2 y (3/2).

**10.4. Asidan (?) Hüseyn oğlu** 37 y; oğlu Allahyar 21 y; qardaşı Həsən 27 y (3/4).

**11.22. Tanrıverdi İbrahimxəlil oğlu** 45 y; oğlanları: Ataxəlil 8 y; Məmməd 5 y; qardaşı oğlu Məmməd 24 y (4/5).

**12.22. Hüseyn Həsən oğlu** 27 y; qardaşları İbrahimxəlil 15 y; Qurban 4 y (3/3).

**15.10. Qurban Ayvaz oğlu** 25 y; qardaşları: Məmmədcəfər 12 y; Əsgər 7 y (3/3).

**14.3. Mirzəli Nəbi oğlu** 30 y; qardaşları: Ramazan 26 y; Rzaqulu 13 y; əmisi oğlu Nəbi 3 y (4/5).

**15.6. Oruc Süleyman oğlu** 60 y; oğlanları: Salman 28 y; Hüseyn 24 y; Qurban 9 y; İsmayıl 7 y; Şərif 5 y; Orucun qardaşı oğlu Ocaqverdi 6 y (7/3).

**16.19. Məmmədəli Məmməd oğlu** 35 y; qardaşları: Əhməd 30 y; Cəfər 10 y; Səfər 8 y (4/2).

**17. Hüseyn Abdulla oğlu** 13 y (1/1).

**18.24. İsmayıl Şövkət oğlu** 29 y; oğlu Əliverdi 2 y; qardaşları: Musa 25 y; İbrahim 20 y (4/2).

**19.11. Cəfər Bağır oğlu** 31 y; qardaşları: Namaz 26 y; Səfud (?) 20 y (3/1).

**20. Zeynalabdin Əli(Alı) oğlu** 11 y; qardaşı Ələsgər 5 y (2/2).

**21.15. Abbas Nəsib oğlu** 35 y; oğlu Kiraz 1 y (2/1).

**22.15. Hüseyn Nəsib oğlu** 30 y; qardaşı Həsənəli 27 y (2/1).

**23.28. Mustafa Osman oğlu** 28 y; oğlu Həsən 2 y (2/2).

**24.14. Vəli Ramazan oğlu** 25 y; əmisi oğlanları: Əhməd 15 y; Tağı 12 y; Əsgər 13 y (4/3).

**25.23. Qurban Məmməd oğlu** 52 y; oğlanları: Mə(hə)mməd 13 y; Rüstəm 10 y; Məsim 8 y;

***qardaşı*** Qasım 34 y; onun oğlu İsgəndər 8 y (6/3).

**26.13. Əsgər Məmiş oğlu** 26 y (çolaq; 1/-).

**27.7. Əli İsgəndər oğlu** 25 y (1/-).

**28.2. Ələsgər Mirzə oğlu** 46 y; oğlanları: Məmməd 7 y; Əsəd 1 y (3/4).

**29. Mehdi Müfti oğlu** 50 y; oğlanları: Əbdürrəhman 8 y; Usub 1 y;

***qardaşları:*** Mə(hə)mməd 45 y; onun oğlanları: Hüseyn 25 y; Həsən 15 y; İsgəndər 10 y; Ömər 1 y;

Əli 25 y; oğlu Musa 5 y (11/8).

*Qazax nahiyəsinin Şıxılı kəndindən bu kəndə köçüb.*

**30. Mustafa Bamcan(?) oğlu** 30 y; qardaşı Musa 25 y (2/2).

*Qazax nahiyəsinin Şıxılı kəndindən bu kəndə köçüb.*

***Xəzinə torpaqlarında yaşayan əhalnin cəmi: 97 kişi və 79 qadın.***

2.Mülkədar kəndliləri.

**Knyaz Abaşidzenin təhkimli kəndliləri**:

**1.2. Hasan Nəzər oğlu** 62 y; oğlanları: Zeynal 30 y; Mə-mədbağır 26 y;

***əmisi oğlanları:*** Oruc 38 y; onun oğlanları: Babakişi 16 y; Mehdi 13 y Mürşüd 10 y; Məmməd 7 y (8/5).

**2. Allahveri Zeynal oğlu** 42 y; oğlu Məhərrəm 3 y; qarda-şı oğlanları: Ağakişi 18 y; İbrahim 6 y (4/6).

**3.1. Məhərrəm Budaq oğlu** 45 y; oğlu İsgəndər 9 y; əmisi oğlanları: Namaz 20 y; Əli(Alı) 18 y (4/3).

**4.3. Qurban Hümmət oğlu** 56 y; oğlanları: Əminət 27 y; Hasan 20 y; Məmməd 10 y; Mustafa 7 y; qardaşı oğlanları: Ramazan 6 y; İsmayıl 1 y (7/6).

**Knyaz Andronikovun təhkimli kəndliləri:**

**3.4. Əli(Alı) Göy Vəli oğlu** 27 y; oğlu Bayram 8 y; qardaşı: İbrahim 24 y; onun oğlanları Sadıq 7 y; Oruc 4 y (5/3).

**6. Şərif İbrahimxəlil oğlu** 32 y; qardaşı oğlanları: Hüseyn 12 y; İbrahimxəlil 8 y (3/3).

***Mülkədar torpaqlarında yaşayan kənd əhalisi: 31 kişi və 26 qadın.***

***Ağaməmmədli kəndində 36 ailə və kişi cinsindən 128 nəfər yaşayır, hamısı tatardır.***

**Kameral təsvir tərtb ediləndən sonra əlavə edilənlər:**

**SAİLOVLAR** *(1871-ci ildə ağalar sinfindən xaric edilərək vergi müklləfiyyətlilərin siyahısına salınmışlar):*

**1. Ələsgər ağa Əhməd ağa oğlu** 55 y; oğlanları: Hacı ağa 30 y; Əmiraslan ağa 20 y; Sail ağa 14 y; Həsən ağa 10 y; Vəli ağa 8 y; Əhməd ağa 1 y.

**2. Süleyman ağa Hüseyn ağa oğlu** 45 y; oğlu Ələsgər ağa 8 y;

***qardaşı*** Bədəl ağa 34 y; onun oğlanları: Rəsul ağa 12 y; Bəxtiyar ağa 8 y; Əsgər ağa 6 y; Zülfüqar ağa 1 y.

**NƏBİYEVLƏR** *(1871-ci ildə ağalar sinfindən xaric edilərək vergi müklləfiyyətlilərin siyahısına salınmışlar):*

**3. Ramazan ağa İsmayıl ağa oğlu** 55 y;

***qardaşı*** Qəhrəman ağa 45 y; onun oğlanları: Sadıq ağa 25 y; Məmmədqulu ağa 12 y; Hüseynqulu ağa 10 y; Salman ağa 5 y; Abbasqulu ağa 1 y;

***qardaşı oğlanları:*** Mansur ağa 12 y; Əsgər ağa 5 y; İsmayıl ağa 3 y.

**4. Əli ağa Vəli ağa oğlu** 20 y.

**5. Atakişi ağa Sadıq ağa oğlu** 20 y; əmisi oğlu Hüseyn ağa İsa ağa oğlu 12 y; onun qardaşı Musa ağa 5 y.

**AKAURTA kəndi** (v.37-42)

***Kənddə 12 gürcü ailəsi, 51 kişi və 45 qadın, cəmi 96 gürcü və 2 erməni ailəsi, 8 kişi və 3 qadın, cəmi 11 erməni yaşayır. Kəndin ümumi əhalisi: 59 kişi və 48 qadın.***

**AKORİ kəndi** (v.45-61)

***42 erməni ailəsinin siyahısı.***

***Kənddə 188 kişi və 164 qadın yaşayır.***

**HALLAVAR kəndi** (v.65-70)

Müsəlman tatarlar.

Mülkədar kəndliləri.

**Polkovnik Mirzə Avramoviç Yenikolopovun təhkimli kəndliləri:**

**1.1. Novruz Kovxa Əhməd oğlu** 60 y (1/1).

**2.2. Qurban İbrahim oğlu** 27 y; qardaşı İbrahim 22 y (2/3).

**3.8. Abdulla Mustafa oğlu** 32 y; oğlanları: Murğuz 8 y; Mustafa 5 y (3/2).

**4. Hüseyn Allahverdi oğlu** 8 y; qardaşı Həsən 4 y; əmisi oğlu Mə(hə)mməd 10 y (3/1).

**5.6. Vəli Oruc oğlu** 36 y; oğlanları: Yusif 12 y; Nəsib 8 y; Həsən 4 y; qardaşı Nəbi 25 y (5/2).

**6.4. Əli Nəbi oğlu** 58 y; oğlanları: Oruc 19 y; İbrahim 12 y (3/2).

**7.4. Qurban Nəbi oğlu** 38 y; qardaşı Səfər 35 y; onun oğlu Adıgözəl 8 y (3/4).

**8.11. Ramazan Ramazan oğlu** 45 y; oğlu Qurban 10 y; qardaşları: Oruc 25 y; Mövla 13 y (4/4).

**9.5. Əli Allahverdi oğlu** 45 y; oğlanları: Allahverdi 18 y; Adıgözəl 8 y; Lütfiyar 2 y; qardaşı Allahyar 35 y (5/3).

**10. Qurban Mustafa oğlu** 33 y; əmisi oğlu Nəbi 17 y (2/3).

**11. İsmayıl Vəli oğlu** 28 y; qardaşı İbrahimxəlil 18 y; qardaşı nəvələi: İbrahim 4 y; Əsəd 2 y (4/4).

**12.10. Satılmış Əlizeynal oğlu** 56 y; oğlanları: Dədə 25 y; Hüseyn 20 y; qardaşı Məmməd 4 y (4/7).

**13.9. Musa Sadıq oğlu** 30 y; qardaşı Namaz 20 y; qardaşı oğlanları: Oruc 10 y; Sadıq 8 y (4/4).

**14. Əli Bayram oğlu** 30 y; oğlu Bayram 5 y; qardaşı Osman 10 y (3/2).

**15.7. Məhərrəm Qara oğlu** 25 y; qardaşları: Mustafa 20 y; Baba 15 y; Talıb 12 y; Novruz 8 y; əmisi oğlanları: Məmmədəli 20 y; Allahverdi 8 y (7/4).

**16.3. Oruc Hüseyn oğlu** 43 y; oğlanları: Tanrıverdi 15 y; İsmayıl 13 y; Süleyman 11 y; İmaməli 8 y; Dünyamalı 6 y; qardaşı oğlanları: Kərim 14 y; Nuru 10 y (8 1).

**17. Usub Həsən oğlu** 40 y; oğlu Kərim 3 y (2/1).

**18. İman Məmməd oğlu** 50 y oğlanları: Allahverdi 25 y; Əhmd 20 y (3/2).

*Qaradaş kəndindən gəliblər.*

***Hallavar kəndində cəmi 18 ailə 66 kişi, 44 qadın yaşayır, hamısı tatardır.***

***Yoxlamanı həyata keçirdi və kameral təsviri tərtib etdi kollegiya müşaviri Z.İlyaşeviç.***

**YUXARI HAMAMLI kəndi** (v.73-89)

Müsəlman tatarlar.

1. Mülkədar torpaqlarında yaşayan dövlət kəndliləri:

**1.29. Molla Əli Molla Məmməd oğlu** 30 y; oğlu Həsən 6 y; qardaşları: Süleyman 20 y; Abdulla 15 y (4/4).

**2.9. Kovxa İsmayıl Qasım oğlu** 45 y;

***oğlanları:*** Əli(Alı) 30 y; onun oğlu Həsən 1 y;

İbrahim 25 y; onun oğlu Hüseyn 1 y; Musa 20 y (6/7).

**3.13. Bayram Qasım oğlu** 65 y; oğlanları: İsa 31 y; onun oğlanları: Nəsib 4 y; Usub 1 y; Məmməd 30 y; Nəbi 15 y; Hüseyn 10 y (7/8).

**4.2. Xəlil Xəlil oğlu** 80 y;

***oğlanları:*** Süleyman 40 y; onun oğlanları: Elləz 10 y; İbrahim 8 y;

Əmin 30 y; onun oğlanları: İsmayıl 3 y; Hüseyn 1 y;

İsgəndər 25 y; Tağı 20 y (9/9).

**5. Dadaş Xıxan oğlu** 50 y; oğlanları: Murad 30 y; Aslan 15 y; Oruc 10 y; Mustafa 5 y (5/4).

**6.11. Cəlil Qədir oğlu** 90 y;

***oğlu*** Nəbi 50 y; onun oğlanları: Elləz 12 y; İbrahim 8 y; Süleyman 1 y (5/2).

**7.11. İslam Cəlil oğlu** 50 y; oğlanları: Usub 15 y; Musa 12 y; Mustafa 10 y; Məmməd 8 y; Əhməd 1 y (6/3).

**8. İbrahim İslam oğlu** 40 y; oğlanları: İsgəndər 8 y; İsa 6 y; qardaşı Paşa 10 y (4/-).

**9.6. Qəhrəman Əhəd oğlu** 50 y; oğlanları: Əhməd 3 y; Mə(hə)mməd 1 y; qardaşı oğlanları: İsmayıl 30 y; Həsən 20 y (5/4).

**10.Əli Xıxan oğlu** 60 y;

***oğlanları:*** Adıgözəl 25 y; onun oğlu M)mməd 4 y;

İsa 20 y; Musa 5 y (5/4).

**11.5. İsmayıl Alışan oğlu** 40 y; oğlanları: İbrahim 12 y; Süleyman 10 y; qardaşı Elləz 25 y (4/4).

**12.3. Əli İslam oğlu** 60 y; oğlanları: Emin 20 y; Həsən 18 y; Əli(Alı) 15 y (4/6).

**13.26. Qurban Qədim oğlu** 40 y; oğlu Əsgər 3 y; qardaşları: Qədim 30 y; Nəsib 25 y; Əli(Alı) 12 y; Ədna 10 y; Oruc 3 y (7/5).

**14.21. Elləz Vəli oğlu** 60 y; oğlanları: Əhməd 20 y; Usub 15 y; Qurban 4 y; Nəbi 6 y; Vəli 4 y (6/3).

**15.3. Murad Bədəl oğlu** 24 y (1/1).

**16.7. Əli Eminəli oğlu** 40 y; oğlu Əmirxan 10 y; qardaşları: Tağı 35 y; onun oğlu Emin 1 y; Məmmədəli 30 y (5/8).

**17.17. Əli Allahverdi oğlu** 50 y;

***qardaşları:*** Süleyman 40 y; onun oğlanları: Allahverdi 11 y; Nəsib 4 y; Hüseyn 4 y;

İsa 30 y; Əhməd 25 y; Şərif 20 y; İbrahmxəlil 17 y (9/5).

**18. Qəhrəman Məmməd oğlu** 60 y; oğlu Musa 20 y;

***qardaşları:*** Əli(Alı) 50 y; onun oğlanları: Emin 12 y; Alışan 9 y;Aslan 4 y;

Alışan 30 y; Əli 15 y; İsmayıl 8 y (9/8).

**19.5. Qumanxan Dədə oğlu** 50 y; oğlanları: Musa 20 y; İsa 15 y; Həsən 10 y; İsgəndər 5 y (5/3).

**20.22. İsmayıl Cəlil oğlu** 40 y; oğlanları: Məmməd 7 y; Əhməd 1 y;

***qardaşları:*** Bayram 35 y; onun oğlanları: Əsgər 6 y; Əhməd 4 y;

Nəsib 33 y; onun oğlu Süleyman 3 y;

Nəbi 30 y; onun oğlu Aslan 1 y;

İbrahim 20 y; Vəli 16 y (12/6).

**21.23. Əli Molla Hüseyn oğlu** 50 y; oğlu Nəbi 5 y;
*qardaşları:* Süleyman 40 y;
Əhməd 30 y; onun oğlu İsmayıl 7 y (5/7).

**22. Xəlil Əhməd oğlu** 50 y; oğlanları: Həsən 25 y; Əhməd 15 y; Aslan 3 y; qardaşı Hüseyn 40 y (5/5).

**23.5. Əli Aşır oğlu** 50 y; qardaşları: Atakişi 30 y; Elləz 20 y; Bəkir 15 y; Nəbi 10 y (5/5).

**24.16. Məmməd Əhməd oğlu** 30 y; qardaşları: Səfixan 25 y; onun oğlu Əli(Alı) 1 y; Allahverdi 8 y (4/3).

**25.24. Mustafa Xəlil oğlu** 50 y; oğlu Məmməd 15 y; qardaları: Əhməd 30 y; Xəlil 12 y (4/6).

**26. Süleyman Əhməd oğlu** 60 y; oğlanları: Musa 8 y; Əli(Alı) 6 y; Novruz 4 y (4/2).

**27.6. İbrahim Hüseyn oğlu** 50 y; oğlanları: Xeyrulla 15 y; Mə(hə)mməd 10 y; Ömər 8 y; Elləz 5 y (5/1).

**28. İdris Cəfər oğlu** 55 y; oğlanları: Məmməd 20 y; Qəhrəman 15 y (3/1).

**29. Bayram Ocaqverdi oğlu** 60 y; oğlanları: Balakişi 30 y; Mikayıl 20 y; Bəylər 15 y; İsmayıl 12 y (5/3).

**30.37. Paşa Əli oğlu** 40 y;oğlanları: Əli(Alı) 20 y; Mə(hə)mməd 10 y; Qəhrəman 4 y (4/2).

***Mülkədar torpaqlarında yaşayan ümumi əhali: 162 kişi və 129 qadın.***

**2. General-adyutant Qriqori Dmitriyeviç Orbelianinin təhkimli kəndliləri:**

**1. Məhərrəm Tağı oğlu** 30 y; oğlanları: Rəsul 8 y; İrzaqulu 4 y (3/4).

**2.2. Yəhya İsmayıl oğlu** 60 y; oğlanları: Musa 20 y; Abdulla 15 y; Xəlil 12 y; Rəsul 5 y; Usub 3 y;

***qardaşları:*** Qurban 40 y; onun oğlanları: İsgəndər 5 y; Nəsib 3 y;

qardaşı oğlanları: Əli(Alı) 30 y; Mə(hə)mməd 20 y (11/10).

**3. Knyaginya Yelizaveta Baqration Muxranskinin təhkimli kəndliləri:**

**3.1. Allahverdi Mehdi oğlu** 55 y; oğlanları: Əyyub 16 y; Süleyman 12 y; Əhməd 10 y;

***qardaşları:*** Xudaverdi 50 y; Qurban 20 y;

Xudaverdinin oğlanları: İsmayıl 18 y; Kəramət 10 y; Namazəli 3 y (9/7).

**4.29. Qədim Tağı oğlu** 80 y; oğlu Süleyman 50 y (2/4).

***Mülkədar kəndlilərinin sayı: 25 kişi v 25 qadın.***

***Hamamlı kəndində cəmi 34 ailə, kişi cinsindən 187 nəfər yaşayır, hamısı tatardır.***

***Yoxlamanı həyata keçirdi və kameral təsviri tərtib etdi kollegiya müşaviri Z.İlyaşeviç.***

**Kameral təsvir tərtib edildikdən sonra əlavə edilənlər:**

1. **Qədim Nağı oğlu** 50 y.

**HÜMBƏTOVLAR** (*1871-ci ildə ağalar sinfindən xaric edilərək vergi müklləfiyyətlilərin siyahısına salınmışlar*):

2. **Abdulla ağa Süleyman ağa oğlu** 50 y; oğlanları: Paşa ağa 15 y; Almas ağa 7 y; Alıxan ağa 6 y;

***qardaşları:*** Ağakişi ağa 30 y; onun oğlanları: Ədna ağa 2 y; Süleyman ağa 10 y; İdris ağa 7 y; Ömər ağa 3 y; İsa ağa 1 y;

Mansur ağa 26 y; onun oğlu Emin ağa 3 y;

İsmayıl ağa 24 y; Məmmədağa 20 y.

**3. Hüseyn ağa Rəsul ağa oğlu** 58 y; oğlanları: Hümbət ağa 22 y; Əhməd ağa 15 y; Rəsul ağa 4 y.

**4. Əli ağa Hasan ağa oğlu** 30 y; qardaşları: Osman ağa 20 y; Mahmud ağa 18 y.

**5. Qurban ağa Usub ağa oğlu** 40 y; oğlanları: Əli(Al)məmməd ağa 15 y; Ələsgər ağa 9 y; Vəliməmməd ağa 6 y.

**ƏNGİRAVAN kəndi** (v.91-92)

Müslman tatarlar.

Mülkədar torpaqlarında yaayan dövlət kəndliləri.

**1.4. Tanrıverdi Piri oğlu** 40 y; oğlanları: Baayram 4 y; Allahverdi 2 y; qardaşı Ocaqverdi 30 y; qardaşı oğlanları: İbrahim 7 y; Piri 4 y (6/6).

**2.2. Gülməmməd Rəhim oğlu** 50 y; oğlu Mustafa 3 y; qardaşı Əli(Al)məmməd 25 y; oğlu Rəhim 2 y (4/6).

***Əngiravan kəndidə cəmi 2 ailə, 10 kişi və 12 qadın yaşayır, hamısı tatardır.***

***Yoxlamanı həyata keçirdi və kameral təsviri tərtib etdi kollegiya müşaviri Z.İlyaşeviç.***

**ARAPLI kəndi** (v.95-109)

Müsəlman tatarlar.

Mülkədar torpaqlarında yaşayan dövlət kəndliləri.

**1.20. Kərim Kovxa Məmməd oğlu** 25 y; qardaşları: Rəhim 12 y; Məmmədəli 9 y; İbrahim 6 y (4/3).

**2.23. Kərbəlayı İrzaqulu Qəni oğlu** 50 y; oğlanları: Abdulla 20 y; Əli 10 y; Mustafa 7 y; qardaşları: Mursaqulu 35 y; Kazm 25 y (6/7).

**3.19. Qasım Hasan oğlu** 40 y; oğlanları: Əli 12 y; Nəbi 8 y; qardaşı: Namaz 35 y; qardaşı oğlanları: Qurbanəli 22 y; Babakişi 15 y; Məmmədəli 17 y; Hüseyn 7 y; Mə(hə)mməd 1 y (9/4).

**4.19. Hümbət Hasan oğlu** 50 y; oğlu Məmmədəli 20 y (2/2).

**5.35. Qasım Seyid oğlu** 40 y; oğlanları: Qulu 8 y; Abbasqulu 3 y; qardaşı oğlu Cəfər 30 y (4/7).

**6.11. Sadıq Bədəl oğlu** 35 y; oğlu Ələsgər 5 y; qardaşı Mərdan 30 y; qardaş oğlanları: Ağacan 20 y; Paşa 10 y (5/8).

**7.45. Məmməd Mirzə Kazım oğlu** 45 y; oğlu İrza 3 y; qardaşları: Mustafa 25 y; Bayram 12 y (4/2).

**8.47. Süleyman Molla Əhməd oğlu** 55 y; oğlanları: Əhməd 18 y; Söhbət 10 y; qardaşları: Hüseyn 30 y; Sadıq 25 y (5/4).

**9.10. İsmayıl Məşədi Gülməmməd oğlu** 45 y; oğlu Mə(hə)mməd 3 y; qardaşı Məşədi Şərif 35 y; onun oğlu Gülməmməd 3 y (4/4).

**10.5. Məşədi Mansur Kazm oğlu** 55 y; oğlanları: Abdulla 30 y; Məmməd20 y; İrza 14 y (4/2).

**11.5. Bayram Qazan oğlu** 45 y; oğlu İsgəndər 4 y; qardaşı Molla Əmirqulu 30 y; onu oğlanları: Əsgər 6 y; Əli(Alı) 2 y (5/3).

**12. Namaz Hasan oğlu** 30 y; oğlanları: Məhəmməd 12 y; Süleyman 8 y (3/1).

**13.7. Qurban Mustafa oğlu** 50 y; oğlanları: Mustafa 20 y; Məmməd 12 y; Əhməd 8 y; qardaşı Əli 40 y; qardaşı oğlanları: Musa 20 y; Kazım 15 y; Abdulla 10 y(8/5).

**14.25. Mustafa Cəfərqulu oğlu** 40 y; oğlu Ələkbər 1 y; qardaşı İsa 35 y (3/5).

**15.33. Hasan Oruc oğlu** 32 y; qardaşı Allahqulu 25 y (2/1).

**16.22. Qurban Əmirqulu oğlu** 45 y;

***qardaşları:*** İbrahim 35 y; onun oğlu Məmməd 1 y;

Hüseyn 25 y; onun oğlu İmamqulu 3 y; İsamayıl 20 y (6/4).

**17.37. Mustafa Nəzər oğlu** 40 y; oğlanları: Rüstəm 4 y; Əmiraslan 2 y; qardaşı Musa 20 y (4/2).

**18.38. Qulu Vəli oğlu** 40 y; oğlu Əli 1 y (2/5).

**19.14. Mansur Yolçu oğlu** 55 y (1/1).

**20.46. Qurbanqulu Əli(Alı) oğlu** 40 y; oğlanları: Əli 12 y; Mehdi 1 y; qardaşı oğlanları: Bayramqulu 25 y; Namaz 35 y (5/3).

**21.8. İsmayıl Cəfər oğlu** 50 y; oğlanları: Mehdi 30 y; Əsgər 6 y; qardaşı oğlu Vəli 44 y (4/4).

**22.30. Məmmədəli Sofi oğlu** 55 y; oğlanları: Baba 30 y; Mansur 25 y; Əhməd 20 y; Məmməd 9 y; Əyyub 6 y (6/4).

**23.39. Qulu Əli oğlu** 18 y (1/1).

**24.2. Mehdi Araz oğlu** 60 y; oğlanları: Məmmədəli 20 y; Əli(Alı) 15 y; qardaşı oğlanları: Hasan 40 y; Mustafa 14 y (5/3).

**25. Əli Şıxı oğlu** 60 y; oğlanları: Qulu 20 y; Məmməd 2y (3/2).

**26. Yolçu Qala oğlu** 25 y (1/1).

**27. 12.Mirzə Oruc oğlu** 25 y; əmisi oğlanları: İsaxan 9 y; Musaxan 7 y; Kazım 5 y (4/2).

**28. Abdulla Məmmədqulu oğlu** 15 y; qardaşları: Aduxan 7 y; Babaxan 5 y; Sadıq 3 y (4/-).

**29.48. Çaş Hüseyn Fatma oğlu** 35 y; oğlu Ələkbər 5 y (2/1).

**30.29. Ağakişi Əliqulu oğlu** 50 y (1/1).

**31.16. Haxverdi ağa İrzaxan ağa oğlu** 45 y; oğlu İrzaxan ağa 20 y; qardaşları: İmamverdi ağa 35 y; Baayramqulu ağa 30 y (4/6).

***Araplı kəndində cəmi 31 ailə, 121 kişi və 98 qadın yaşayır, hamısı tatardır.***

***Yoxlamanı həyata keçirdi və kameral təsviri tərtib etdi kollegiya müşaviri Z.İlyaşeviç.***

**Kameral təsvir tərtib edildikdən sonra əlavə edilənlər**:

**32. Mustafa Əli oğlu** 40 y; oğlanları: Məmməd 8 y; Kərim 6 y; İrəhim 3 y (4/2).

*1860-cı ildə Ləmbəli kəndindən gəliblər.*

**33. Abdulla Məmmədqurban oğlu** 27 y;

**34. İbrahim Ağakişi oğlu** 20 y.

**ARIXLI kəndi** (v.111-124)

Mülkədar torpaqlarında yaşayan dövlət kəndliləri.

Müsəlman tatarlar.

**1. Tanrıverdi Alahverdi oğlu** 15 y (1/3).

**2. Aslan Hacı Yusif oğlu** 42 y; oğlu Qurban 12 y; qardaşı Hacı Şərif 31 y (3/3).

**3.1. Musa Mustafa oğlu** 60 y; oğlu Qurban 20 y (2/3).

**4.1. Mustafa Qurban oğlu** 30 y; qardaşları: Məmməd 25 y; Bayram 2 y (3/3).

**5.4. Namaz Şərif oğlu** 60 y; oğlanları: Hüseyn 10 y; Əhməd 4 y; qardaşı oğlu İsmayıl 12 y; qardaşı Süleyman 38 y (5/2).

**6.5. Namaz Şərif oğlu** 50 y; oğlu İbrahim 6 y; qardaşı oğlu Təhməzqulu 35 y; onun oğlu Tanrıverdi 5 y; onun qardaşı Musa 33 y (5/3).

**7.6. Yusif dulla oğlu** 75 y; oğlanları: Aslan 35 y; Abdulla 25 y; Ömər 22 y; Abdullanın oğlu Bayram 10 y (5/3).

**8. İbrahimxəlil Ömər oğlu** 33 y; qardaşları: Mustafa 40 y; Baayram 25 y (3/3).

**9.8. İsa Mustafa oğlu** 65 y; oğlanları: Elləz 26 y; Musa 12 y (3/4).

**10. Əli Hasan oğlu** 60 y; oğlanları: Xəlil 20 y; Cəlil 18 y; Yusif 1 y (4/3).

**11.9. Emin Vəli oğlu** 55 y; oğlu Aydəmir 15 y; qardaşı oğlu Əhməd 41 y; oğlanları: Əli 13 y; Nəsib 12 y (6/3).

**12.9. İbrahim Əli oğlu** 50 y; oğlanları: Qurban 15 y; İsmayıl 10 y (3/3).

**13. Əli Musa oğlu** 40 y; oğlu Mə(hə)mməd 5 y (2/-).

**14.13. Allahverdi Tanrıverdi oğlu** 30 y (1/7).

**15. Pirverdi Mustaafa oğlu** 50 y; oğlu Məmməd 6 y; qardaşı Allahverdi 20 y (3/3).

**16. Pirməmməd Əli oğlu** 20 y; qardaşı Qurban 15 y (2/1).

**17.19. Ocaqverdi Nəsib oğlu** 40 y; oğlu İbrahim 4 y; qardaşı Nəsib 30 y (3/3).

**18.20. Əhməd Pirməmməd oğlu** 56 y; oğlanları: Namaz 18 y; Mirməmməd 15 y; İsmayıl 12 y; qardaşı Xəlil 30 y; onun oğlu Süleyman 4 y (6/3).

**19.21. Vəli Ayvaz oğlu** 30 y (1/2).

**20.22.Süleyman Xəlil oğlu** 40 y; oğlu Osman 5 y; qardaşı İbrahim 20 y (3/3).

**21.23. Namaz Cəfər oğlu** 60 y; oğlanları: Səfər 20 y; Musa 12 y; qardaşı Məmməd30 y (4/4).

**22. Əhməd Bayram oğlu** 50 y; oğlu Qasım 23 y (2/4).

**23.30. Novruz Məmməd oğlu** 25 y; oğlu Məmməd 2 y; qardaşı Əli 18 y (3/2).

**24.31. Əhməd Şahməmməd oğlu** 50 y; oğlanları: Şahməmməd 12 y; Xanməmməd 9 y; qardaşı Abdulla 30 y (4/5).

**25.32. Əhməd Vəli oğlu** 45 y;

***qardaş*** İsa 35 y; onun oğlu Vəli 20 y (3/4).

**26.34. Xəlil Osman oğlu** 53 y; oğlanları: Osman 20 y; Süleyman 15 y; Vəli 4 y (4/3).

**27. Nəbi Novruzəli oğlu** 80 y; oğlanları: Novruz 30 y; Dərvişəli 25 y (3/3).

